AZƏRBAYCAN RESPUBLİKASININ TƏHSİL NAZİRLİYİ
XƏZƏR UNİVERSİTETİ

HUMANİTAR VƏ SOSİAL ELMLƏR FAKÜLTƏSİ

İstiqamətin şifri və adı 060209 Psixologiya
İxtisaslaşmanın adı Ümumi psixologiya

Psixologiya kafedrasının magistrantı
Həcəmova Zeynəb Əhməd qızının

Magistr dərəcəsi almaq üçün

# KİÇİK MƏKTƏBLİLƏRDƏ TƏLİM MOTİVASİYASININ YARANMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏRİN PSİXOLOJİ TƏHLİLİ

mövzusunda

DİSSERTASİYA İŞİ

Elmi rəhbər: Psixologiya üzrə fəlsəfə doktoru
M.H. Mustafayev

BAKI – 2018

# MÜNDƏRİCAT

Xülasə.......................................................................................................2

Giriş...........................................................................................................3-7

I FƏSİL. PROBLEMİN ÜMUMİ NƏZƏRİ MƏSƏLƏLƏRİ……………………..........

1.1. Motivasiya anlayışının psixoloji mahiyyəti...................................................8-22

1.2. Problemin tədqiqi istiqamətləri...................................................................23-32

II. FƏSİL. KİÇİK MƏKTƏBLİLƏRDƏ TƏLİM MOTİVASİYASININ İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR.........................................................

2.1.Kiçik məktəblilərdə təlim motivlərinin yaranmasında məktəbin rolu............33-48

2.2. Kiçik məktəblilərdə təlim motivlərinin yaranmasında ailənin rolu................49-62

III. FƏSİL. KİÇİK MƏKTƏBLİLƏRDƏ TƏLİM MOTİVASİYASININ YARANMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏRİN EKSPERİMENTAL-PSİXOLOJİ TƏDQİQİ...............................................................................................

3.1. Tədqiqat metodikasının seçilməsi prinsipləri və təsnifatı..............................63-64

3.2. Alınan nəticələrin işlənilməsi.........................................................................65-70

Nəticə.......................................................................................................71-72

İstifadə edilmiş ədəbiyyat.............................................................................73-76

Əlavələr.......................................................................................................

# XÜLASƏ


Dissertasiya işi giriş, 3 fəsil, nəticə, ədəbiyyat siyahısı və mövzuya dair edilən əlavələrdən ibarətdir.

Giriş hissəsində kiçik məktəb yaşının psixoloji, fizioloji xüsusiyyətləri geniş şərh edilmişdir. Kiçik məktəb yaşı dövrünün əlamətlərinə də xüsusi yer ayrılmışdır. Müxtəlif yaş dövrlərində təlim prosesinin uşaqların inkişafındakı aktual rolu xüsusi vurğulanmışdır. Bundan başqa uşaqlarda, habelə kiçik məktəb yaşlı uşaqlarda təlim motivlərinin inkişafına təsir göstərən amillər və onların psixoloji xarakteristikası təhlil edilmiş və qeyd olunmuşdur. Motivasiya, fizioloji mənşəli motivlər və insani impulslar haqqında məlumat verilmişdir. Mövzuya dair bir sıra müəlliflərin və alimlərin fikirlərinə istinad edilmişdir.

Dissertasiya işinin birinci fəsilində motivasiya və motiv anlayışları geniş şərh edilmiş, motivlərin növləri, məzmunu və tədris prosesində xüsusi əhəmiyyət kəsb edən motivlər haqqında ətraflı məlumat verilmişdir. Həmçinin bu hissədə kiçik məktəblilərdə təlim motivlərinın inkişafında ziddiyyət təşkil edən məsələlər və idrak fəaliyyətindəki problemlərin təhlilinə də yer ayrılmışdır.

Dissertasiya işinin ikinci fəsilində kiçik məktəbyaşlı uşaqlarda təlim motivlərinin təşəkkülü, ona təsir göstərən faktorlar və inkişafı məsələlərinə yer ayrılmışdır. Təlim motivlərinin inkişafında məktəbin və ailənin rolu təhlil edilmiş, ilk dəfə olaraq uşaqların motivasiya edilməsi yolları açıqlanmışdır. Kiçik məktəbyaşlı uşaqlarda və ümumiyyətlə təhsil sistemində təlim motivlərinin inkişaf etdirilməsi və təlim prosesinin daha da təkmilləşdirilməsi məqsədilə dərs rejimində fəal və interaktiv təlim metodlarından istifadənin zəruriliyi xüsusi vurğulanmışdır.

Dissertasiya işinin üçüncü fəsilində mövzuya dair müxtəlif metodlarla aparılan təcrübələrin təhliliverilmişdir. Bu hissədə tədqiqat iştirakçıları, tədqiqatın strukturu, tədqiqatda istifadə olunmuş metodlar və alınan nəticələrin təhlili haqqında məlumatlar öz əksini tapmışdır.

# GİRİŞ

**Mövzunun aktuallığı.** Uşaq şəxsiyyətinin inkişafında təlim həlledici rola malikdir. Çünki təlim-tərbiyə prosesində uşağın inkişafı müəyyən məqsədə müvafiq olaraq plan, proqram əsasında təşkil olunur və ona rəhbərlik edilir. Bunun sayəsində də istənilən keyfiyyət surətlə inkişaf etdirilir. Kiçik məktəb yaşı dövründə uşaq sistematik fəaliyyət prosesinə cəlb olunur və cəmiyyət tərəfindən onun yeni məktəbli mövqeyi qarşısında ciddi və mürəkkəb tələblər qoyulur.Uşağın təlim-tərbiyədən kənar inkişafı kortəbii və pərakəndə olmaqla yanaşı, həm də bəşər cəmiyyətinin tələbərinə də uyğun gəlmir (47).Beləliklə deyilənlərdən aydın olur ki, uşağın hərtərəfli, düzgün və sürətli inkişafı təlimdən kənarda mümkün deyildir. Ona görə də şəxsiyyətin inkişafında təlimin oynadığı rol psixoloqların diqqətini xüsusi olaraq cəlb edir. Hazırda təlim və inkişaf, uşaqların təlim prosesində motivasiya edilməsi problemi ətrafında dünya psixoloqlarının fikirlərini müəyyən qruplarda birləşdirmək mümkündür (52). Bu dövlət səviyyəsində nəzarət edilən məsələlərdən biridir.

Tədqiqatın əsas obyekti kiçik məktəb yaşlı uşaqlar və onlarda təlim motivlərinin inkişafına təsir göstərən amillərin təhlilindən ibarətdir. Hər bir yaş dövründə olduğu kimi kiçik məktəb yaşı dövrünün də bir sıra xüsusiyyətləri vardır. Belə ki, bu dövrdə təlim uşağın başlıca fəaliyyət növünə çevrilir və bu proses onun gələcək psixi inkişafının əsas vasitəsi rolunu oynamağa başlayır. Təlim prosesində uşaq müəyyən bilik, bacarıq və vərdişlər sisteminə yiyələnir, bir sıra sadə elmi anlayışları mənimsəyərək onların konkret tətbiq üsulları və vasitələri ilə yaxından tanış olur.

Kiçik məktəb yaşı dövrü 6 yaşdan 10 yaşa qədər olan dövrü əhatə edir. Bu yaş dövründə uşağın orqanizmi anatomik-fizioloji baxımdan sakit və bərabərsürətli tempdə inkişaf etməyə davam edir. I-IV siniflərdə tədris edilən təlim illərində uşaqların boy və çəki artımı mütənasib göstəricilərə malik olur. I sinifdə uşağın boyu 120-125 sm-dən artaraq IV sinifin sonunda orta hesabla 130-143 sm-ə çatır. Qızların boy artımında nisbətən üstün fərqlər müşahidə olunur. Kiçik yaşlı məktəblilərin çəkisi 4 ildə 6-10 kiloqram olmaqla artır və 6 yaşda olarkən 20-21 kiloqramdan 27-38

kiloqrama çatır. Bədənin boy artımı ilə yanaşı, skeletin sümükləşməsi prosesi də davam edir, lakin hələ tamamlanmış olmur. Skelet sistemində qığırdaq toxumaları çoxluq təşkil edir. Kiçik yaşlı məktəblinin orqanizmi özünün elakstikliyi və mütəhərrikliyi ilə fərqləndiyinə görə, bu yaş dövrü bədən tərbiyəsi və idman məşğələləri üçün əlverişli hesab olunur. Bədənin böyük əzələləri kiçik əzələlərə nisbətən tez inkişaf etdiyinə görə, uşaqlar üçün dəqiq hərəkətləri yerinə yetirmək çətinlik törədir. Barmaq buğumlarının sümükləşməsi yalnız bu yaş dövrünün sonunda başa çatdığı üçün, kiçik məktəblilər yazı işində tez yorulurlar. Yazı işlərini səliqəli yerinə yetirmək onlar üçün böyük çətinlik törədir (13, səh.224).

Bildiyimiz kimi müasir dövrdə məktəbin ən mühüm vəzifəsi böyüməkdə olan gənc nəslə dünyəvi elmlərin əsasları üzrə dərin, möhkəm və ətraflı bilik vermək, mədəni cəmiyyətdə cərəyan edən proseslər barədə məlumat vermək və təlim prosesində əldə etdiyi bilikləri təcrübəyə tətbiq etmək vərdişləri və bacarığı aşılamaqdan ibarətdir. Bu vəzifənin yerinə yetirilməsində pedaqoji psixologiyanın mühüm sahələrindən biri olan təlim psixologiyası olduqca böyük rol oynayır. Məktəbə daxil olarkən uşaqlar, xüsusilə də bağçadan gələn uşaqlar bir qayda olaraq ətraf mühit, onun zaman və məkan xüsusiyyətləri, heyvanat və bitki aləmi, insanlar və onlar arasında mövcud olan münasibətlər, ictimai mühit haqqında müəyyən bilik və təsəvvürlərə malik olurlar. Bununla yanaşı, məktəbə daxil olarkən uşaqlarda sadə hesablama, oxu və yazı haqqında da müəyyən məfhumlar, təsəvvürlər mövcud olur (23). Məktəb şəraiti uşağın şəxsiyyətinin mühüm əlamət və keyfiyyətlərinin formalaşması və təzahür etməsində olduqca əlverişli əlamətdir.Məktəbdə təşkil edilən təlim-tərbiyə prosesi uşaqların müvafiq davranış formalarının inkişafına və kollektiv daxilində qəbul olunmuş qarşılıqlı münasibətlərdə qayda və normalara əməl etmələrinə şərait yaradır.

Görkəmli İsveçrə psixoloqu J.Piajenin fikrincə inkişaf özünün daxili qanunlarına malikdir. O, ənənəvi təlimin səmərəsi ilə uşağın müstəqil əqli inkişafı arasında aydın sədd çəkir. J.Piajeyə görə təlimin tənzim edilməsi üçün məhz inkişafın səviyyəsi əsas götürülməlidir (4). C.Brunerin fikrincə isə hər bir inkişafın əsasını yalnız təlim təşkil edir. Təlim prosesində təlabatların ödənilməsi də vacib

şərtlərdəndir. Belə ki, hər şeydən əvvəl uşağın fəaliyyəti üçün zəruri olan məzmun düzgün seçilməlidir. Xüsusi təsir vasitəsi xarakteri daşıyan məzmun elə seçilməlidir ki, təlim prosesini həyata keçirən mütəxəssis (valideyn və s.) uşaqdan istədiyi, lazımi cavabı ala bilsin. Bunun üçün təlimdə motivasiyanı inkişaf etdirən və kiçik məktəb yaşlı uşaqların yaş və fərdi-psixoloji xüsusiyyətlərinə uyğun olan müəyyən vasitələr (oyuncaqlar, kitablar, şəkilli jurnallar, söhbətlər və s.) seçilməlidir. Belə ki, bu cür təsirli vasitələrin seçimi, yerində və düzgün istifadəsi uşaqlarda nəinki təlim bacarıqlarını inkişaf etdirir, həmçinin onların xarakterini və iradəsini də tərbiyələndirir (13, səh. 18). Təlim materiallarının mənimsənilməsində geridə qalan şagirdlərin psixoloji xarakteritikası əsasında N.A.Mençinskaya və onun əməkdaşları "öyrənməyə qabillik" (obuçaemost) anlayışını irəli sürmüşlər (13). Həmin anlayış altında onlar şagirdlərin bilikləri və təlim fəaliyyəti tərzlərini mənimsəməyə nə dərəcədə həssas, qabil olduqlarını nəzərdə tutmuşlar. Öyrənmə qabilliyini şagirdin əqli inkişafı ilə qarışdırmaq olmaz. Yüksək əqli inkişaf səviyyəsinə malik olan adamda bəzən öyrənmə qabilliyinin aşağı səviyyədə olduğunu müşahidə etmək mümkündür. Yaş artdıqca əqli inkişaf yüksək səviyyəyə qalxa bildiyi halda, öyrənməyə qabillik uzun müddət az və ya çox dərəcədə öz sabitliyini saxlaya bilər. Deməli, öyrənməyə qabillik insanın təlim prosesində bilik, bacarıq və vərdişlərin mənimsənilməsinin sürət və keyfiyyətinin fərdi göstəricisindən ibarətdir (37).

**Mövzunun işlənmə səviyyəsi.**Təlim prosesində fəaliyyətin psixoloji strukturu dəyişir və inkişaf edir. Hər bir fəaliyyət müxtəlif ünsürlərin vəhdətindən ibarətdir. Bu ünsürlərdən biri olan motiv insanı fəaliyyətə təhrik edir. Məqsəd isə fəaliyyət nəticəsində əldə ediləcək qayəni təyin edir. Obyekt nəticəyə səbəb olacaq materialı ifadə edir. Fəaliyyət prosesində şagirdlər özlərini müxtəlif şəkildə biruzə verirlər: şagirdlərin işi icra tərzində, məqsədə çatma əzmində, işi planlaşdırmada və sairədə özlərinəməxsusluq, rəngarənglik nümayiş etdirirlər. Onlarda fəaliyyətin hər hansı bir ünsürü və ya ünsürləri üstünlük təşkil edir, hansısa ünsürü isə unudulur və kölgədə qalır. Müəllimin rəhbərliyi altında fəaliyyətin qüsurları aradan qaldırılır və bununla da hər bir şagirdin fəaliyyəti inkişaf etdirilir. Bu da şagird şəxsiyyətinin inkişafına, təkmilləşməsinə və motivasiyanın yüksəldilməsinə səbəb olur. Məhz dissertasiya

işinin də əsas qayəsi kiçik məktəb yaşlı uşaqlarda təlim motivlərinin inkişafında inikas edən faktorların müqayisəli şəkildə öyrənilməsi və əldə olunan nəticələrin praktik tətbiqinə nail olmaqdan ibarətdir.

**Tədqiqatınobyekti.**Dissertasiya işinin əsas obyektini kiçik məktəb yaşlı uşaqlar və onlarda təlim motivlərinin inkişafına təsir göstərən amillərin psixoloji təhlili təşkil edir. Obyektin seçilməsini müəyyən edən ən başlıca amil isə kiçik məktəbyaşlı uşaqlarda təlim motivlərinin inkişafına təsir göstərənamillərin tədqiqindən ibarətdir.

**Tədqiqatın predmeti.**Tədqiqatın predmetini motivasiyanın mahiyyətinin müəyyənləşdirilməsi vəkiçik məktəbyaşlı uşaqlarda təlim motivlərinin inkişafına ailə və məktəb faktorunun təsirinin təhlilitəşkil edir.

**Tədqiqatın fərziyyəsi.** Tədqiqatda belə bir fərziyyəyə istinad olunur ki, kiçik yaşlı məktəblilərdə təlim motivlərinin yaranmasına məktəbdaxili amillərlə yanaşı valideynlərin təhsil səviyyəsi və ailədaxili amillər də əhəmiyyətli təsir göstərir.

**Tədqiqatın məqsədi.** Tədqiqatın əsas məqsədikiçik yaşlı məktəblilərdə motivasiya səviyyəsinin ölçülməsivə təlim motivlərinin inkişafına təsir edən faktorların təhlil edilərək təcrübi tətbiq yollarının müəyyənləşdirilməsidir. Həmçinin bu yaşlı uşaqlarda motivasiyanın və təlim motivlərinin əsas xüsusiyyətləri və problemin bir sıra tədqiqi istiqamətlərinin müəyyən olunması başlıca məqsəd olaraq qarşıya qoyulmuşdur.

**Tədqiqatınvəzifələri:**

1. Kiçikyaşlı məktəblilərin təlim motivlərinin inkişafına təsir göstərən amillərin (məktəb, ailə) təhlil edilməsi;
2. Təlim motivlərinin inkişafına qarşılıqlı münasibətlərin göstərdiyi psixoloji təsirin tədqiqi;
3. Motivasiya səviyyəsinin ölçülməsi;
4. Kiçik məktəbyaşlışagirdlərdə təlim prosesinə olan təlabatın yüksəldilməsi yollarının öyrənilməsiyolları və tətbiqi.

**Tədqiqatıngedişində istifadə olunan metodlar.** Tədqiqat zamanı qarşıya qoyulan vəzifələri həll etmək və lazımi nəticə əldə etmək məqsədilə müşahidə, müsahibə və bioqrafikmetodlardan istifadə edilmişdir.

**Tədqiqatın əhəmiyyəti.**Ailə və məktəbin birgə iş formaları və təlim-tərbiyə prosesində birgə fəaliyyətinə dair məsələlər xüsusi vurğulanmışdır.

**Tədqiqatın elmi yeniliyi və praktik əhəmiyyəti.**İlk dəfə olaraq şagirdlərdə təlim motivlərinin inkişaf etdirilməsi, həmçinin ailədə uşaqların təlim prosesinə motivasiya edilməsi üsulları işlənmiş və qeyd edilmişdir. Qeyd edilən üsullar həm ailə, həm ibtidai sinif müəllimləri, həm də psixoloji xidmət göstərən mütəxəssislər tərəfindən səmərəli şəkildə istifadə edilə bilər.

**Dissertasiya işinin quruluşu.** Dissertasiya işixülasə, giriş, 3 fəsil, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısı və əlavələrdən ibarətdir.

# I FƏSİL. PROBLEMİN ÜMUMİ NƏZƏRİ MƏSƏLƏLƏRİ

## 1.1. Motivasiya anlayışının psixoloji mahiyyəti

Məktəb təcrübəsində, təlim fəaliyyətini həyata keçirərkən çox vaxt belə bir sual diqqəti cəlb edir: şagirdi yaxşı oxumağa və ümumiyyətlə təlimə yönəldən, təhrik edən nədir? Başqa sözlə, şagirdlərin təlim fəaliyyəti necə motivləşir, onlar hansı motivlərin təhriki altında hərəkət edirlər? İlk növbədə, ümumiyyətlə, motivin və motivasiyanın nədən ibarət olduğu nəzərdən keçirilməlidir (16, səh.548).

Motivasiya nədir?

Motivlərin formalaşması və inkişafı prosesinə motivasiyadeyilir. "Motivasiya" anlayışı da "motiv" anlayışı kimi fərqli şərhlərə məruz qalır. Motivasiya sözü latınca "movere", yəni "hərəkət etdirmə, hərəkətləndirmə" mənasını verir. Psixoloji bir fakt olan motivasiyaya müxtəlif zamanlarda və məzmunda dəyişik təriflər verilmişdir. Motivasiya hər hansı ehtiyacın aradan qaldırılmasına xidmət edən davranışların təkanverici qüvvəsidir (39). Motiv və motivasiya problemi psixologiyanın müxtəlif sahələrində geniş tədqiq edilmiş və işlənmişdir. Qeyd edilən məsələ ilə əlaqədar müxtəlif fikirlər mövcuddur və belə bir qənaətə gəlinmişdir ki, məsələnin həlli yolunda şəxsi mövqedən çıxış etmək yeganə çıxış yoludur. Bu məqsədlə tədqiqatın strukturasına müvafiq terminlər, metodlar və üsullar tədbiq edilməlidir.

Müasir psixologiyada "motiv" və " motivasiya" anlayışlarına müxtəlif cür təriflər verilir. Motiv nədir? Motiv – davranışa oyadıcı təsir göstərir (insana xas olan ehtiyacların təzahürüdür).

Bəs motivasiya nədir? Onu motivdən fərqləndirən nədir? Motivasiya şəxsi təlabatların, ehtiyacların ödənilməsinə istiqamətlənən təhrikdir və ya özünü və başqalarını bir növ həvəsləndirməkdir.

Motivasiyanı bir neçə klassifikasiyaya uyğunlaşdırmaq olar:

Təlabatların ödənilməsinə yönələn birbaşa motivasiyalar;

- Tərbiyəçinin şəxsiyyətindən və fəaliyyətindən asılı olan konkret metodlar;

- Müsbət emosiyalara əsaslanan motivasiya;

- Təzahür keyfiyyətlərinə görə perspektiv ehtiva edən motivasiyalar;

-Tələbənin özünün məqsədinə, məqsədəmüvafiqliyinə, gələcək həyatına və planlarına yönələn edilən motivasiya;

- Hər hansı fəaliyyətə, məqsədə olan meyl və maraqdan doğan motivasiya (ətrafdakı insanların razılığı);

- Motivlər həm də neqativ təsirlərdən asılı ola bilir (müəllimdən qorxmaq və s.)

İnsan ehtiyaclarının hər biri heç də eyni sıxlıqda olmur. Onlardan bəziləri müəyyən bir prioritetə malikdir. İnsanları müəyyən bir davranışa yönəldən ehtiyacların təyin olunması və bunların aradan qaldırılması üçün müxtəlif təşkilati vasitələr tətbiq olunur.Motivasiya öyrənmə, təlim prosesinin məhsuldarlığı və effektivliyinə müsbət təsir göstərən və öyrənmə fəaliyyətinin müvəffəqiyyətini müəyyən edən başlıca ünsürdür. Təlim prosesinin sistematikliyi üçün vacib olan şərtlərdən biri kimi qiymətləndirilən motivasiyanın olmaması təlim uğurlarının performansının azalmasına səbəb ola bilər. Motivasiya kifayət qədər geniş, ümumi anlayışdır və psixoloji fenomen adlandırıla bilər.

Müasir psixoloji terminologiyada motivasiya əsasən iki mənada işlədilə bilər: hərəkəti, davranışı və fəaliyyəti stimullaşdıran məfhum və təlabatın ödənilməsini stimullaşdıran bir prosesin xarakteristikasını, davranışı müəyyən edən bir sistem kimi (bu, xüsusilə ehtiyaclar, motivlər, məqsədlər, niyyətlər, aspirasiyalar kimi və s.) qeyd edilə bilər.

Kiçik yaşlı şagirdlər qiymətləndirməyə xüsusi önəm verirlər. Belə ki, təlim uğurlarının yüksək qiymətləndirilməsi onları daha da həvəsləndirir. Nəzərə alınması ən vacib şərtlərdən biri də cəzaların tətbiqi ilə bağlıdır. Unutmaq olmaz ki, şagirdləri (ümumiyyətlə, uşaqları) sinif yoldaşlarının yanında və ya digər kənar şəxslərin yanında cəzalandırmaq, tənbeh etmək olmaz. Bu onlarda təlim motivasiyalarının sönməsi ilə yanaşı, həm də özünüqiymətləndirmənin zəifləməsinə, utancaqlıq hissinin formalaşmasına və digər ciddi xarakterli psixoloji gərginliyə səbəb ola bilər.

Tədqiqatlar nəticəsində sübut olunmuşdur ki, şagirdlərdə, xüsusən də kiçik məktəb yaşlı uşaqlarda təlim motivasiyalarının ölçülməsi mütləq xarakter daşıyır.

Belə ki, təlim prosesində müsbət nəticə əldə etməyin başlıca yolu motivasiyanın yüksəldilməsi ilə müəyyən olunur. Yüksək motivasiya həm də düzgün inkişaf etmiş şəxsiyyət deməkdir. Problemə bu cür yanaşma olduqca aktual xarakter daşıyır. Motiv insan davranışını tənzim edən enerji mənbəyi rolunu oynayır. Eyni zamanda motiv, insanı müəyyən məqsəd, fəaliyyət üçün hərəkət etməyə sövq edən daxili potensial olaraq qəbul edilir. Fizioloji mənşəli motivlərə aclığı, susuzluğu, cinsəlliyi və s. misal göstərmək mümkündür. Motivasiya dedikdə, insanı sanki hər hansı bir fəaliyyət növünə həvəsləndirən “sehrli toz”dərk edilir. Motivasiya kiçik məktəblinin inkişaf zonasına uyğun tənzimlənərsə, bütünlükdə fəaliyyətini əhatə edərsə, intensiv və effektivmәna kəsb edərsə, pedaqoji proses də uğurlu alınar. Pedaqoji prosesin uğurlu alınmasının əsas faktorlarından biri də şagirdlərin emosiyalarına bələd olmaq və empatiya qura bilmək qabiliyyətindən asılıdır.

Motivasiya motivlərin formalaşması prosesinə deyilir.Motivlər təlim prosesinin başlıca hərəkətverici qüvvələridir. Motivlər dedikdə şəxsiyyəti fəaliyyətəistiqamətləndirən konkret niyyətlər, səbəblər başa düşülür. Fəaliyyətə dair motivlərin öyrənilməsi və onlardan düzgün istifadə edilməsi, şəxsiyyətin inkişafının lazımi tərəfə istiqamətləndirilməsi psixoloji əməyin özəyini təşkil edir.

Motivasiya həm də şagirdləri idraki fəaliyyətə, təhsilin məzmununun fəal mənimsənilməsinə sövq edən proseslərə, metodlara, vasitələrə verilən ümumi addır. Motivasiya şəxsiyyətin və onun münasibətlərinin dəyişməsi prosesidir ki, bu da motivlərə əsaslanaraq icra edilir. İnsana xas tələbatlar, maraq və meyillər, arzu və emosiya sistemi,insanın psixoloji durumu (psixologiyada buna “ustanovka” deyilir) və ideallar qarşılıqlı əlaqədə olan motivlərdir. Belə ki, motivləri tam olaraq anlamaq olduqca çətindir, çünki motivlər hər zaman qarşılıqlı və kompleks şəklində təzahür edirlər və psixoloji prosesdə eyni məna kəsb etmirlər (15, səh. 249).

Müasir psixologiyada motivlər müxtəlif cür qruplaşdırılır. Dərk olunan motivlər insanın fəaliyyətini və motivlərin təhrik edilmə xüsusiyyətini ifadə edir. Dərk olunmayan motivlər dedikdə isə mahiyyəti aydın olmayan təhriklər nəzərdə tutulur. Həvəs, ustanovka və s. dərk edilməyən motivlərə aid ola bilər. Onların

(motivlərin) hər birinin özlərinə məxsus davamlılığı, emosional çaları, modallığı, qüvvəsi və ifadə xüsusiyyətləri olur.

Motivasiya prosesi qısa, mərhələli, düşünülmüş və düşünülməmiş ola bilir. Qısa motivasiyayalnız bir tədqiqat sualından ibarət olur. Mərhələli motivasiya isə əsasən 2 addımdan ibarət olur. Düşünülmüş olduqda şagird hər hansı addımı inamla atmağı bacarır. Düşünülməmiş motivlər isə bir qədər dumanlı olur. Yəni hərəkətlər planlaşdırılmış olmur (15. səh. 250).

Motivasiyanın üç əsas hissəsi vardır:

- Hərəkətə keçmə (aktivasiya)
- Davamlılıq (israr)
- Sıxlıq (məşğulluq)

Hərəkətə keçmə (aktivasiya) bir davranışın başlama qərarını bildirir.Məsələn, riyaziyyat fənni ilə məşğul olmaq üçün hər hansı riyaziyyat kursu hazırlığına cəlb olunmaq başlıca şərtdir.

Davamlılıq (israr) maneə ortaya çıxdıqda, hədəfə çatmaq üçün səy göstərməyə davam etmək deməkdir. Psixoloji aspektdən bir misal gətirək: Universitetə daxil olmaq üçün daha çox zaman və enerji sərf etmək lazımdır (51).

Son olaraq, sıxlıq (məşğulluq) hədəfin möhkəmlik və güclülüyünü ifadə edir. Şagird dərs xaricində araşdırma imkanlarından istifadə etmədikdə, hədəfə yaxınlaşa bilməz. Belə ki, kifayət qədər enerji sərf olunmalıdır.

Motivasiya mərhələsi aşağıdakı hissələrdən ibarətdir:

- Problemin qoyulması məqsədilə müvafiq sual və ya tapşırıq verilir;
- İstiqamətləndirici suallar təklif olunur;
- Fərziyyələr irəli sürülür;

Motivasiyanı yaradan amillər sırasında aşağıdakılar da vardır:

- Müxtəlif fərziyyələri yaradan problemli vəziyyət və ya hal;
- Obyektə xas xüsusiyyətlər (qeyri-adi xüsusiyyət, düşüncənin sərbəstliyi və maraq yaradıcı keyfiyyətlər);
- Tədqiqat imkanının olması;
- Yaradıcılıq imkanının olması.

Motivasiya əsasən iki prinsip əsasında qurulur:

1) problemlilik

2) məqsədyönlülük.

Motivlər geniş, sosial və idraki motivlər olaraq da qruplaşdırıla bilər. İdrak motivlərinin də öz növbəsində aşağıdakı növləri vardır:

1. Geniş idrak motivləri (şagird bütün fənlərdə yeni faktlar, nəzəri məsələlər, deduktiv nəticələr və s. ilə maraqlanır);

2. Tədris-idrak motivləri (şagirddə birdən daha çox fənnə maraq əmələ gəlir və o, müvafiq fənləri daha ətraflı öyrənməyə başlayır);

3. Özünütəhsil motivləri (şagird maraqlandığı fənlər üzrə müstəqil surətdə yeni biliklər əldə etməyə başlayır (5)).

Motivlərin keyfiyyətini psixoloji baxımdan aydınlaşdırrakən onları məzmun və formasına (dinamikasına) görə xarakterizə edirlər.

Motivlərin məzmun baxımından xarakteristikasına aşağıdakılar daxildir:

1. Təlimin şagird üçün şəxsi məna kəsb etməsi;

2. Motivin fəallığı – təlim şagird üçün şəxsi məna kəsb etdikdə, motiv fəal xarakter daşıyır, o xüsusi həvəslə çalışmağa başlayır. Başqa cür olduqda motiv təlim prosesinə müsbət təsir göstərmir;

3. Motivlərin ümumi strukturunda motivin yeri: əsas, aparıcı motiv özünün istiqamətindən (kollektivçi və ya eqoist xarakter daşımasından) asılı olaraq fəaliyyətdə əvəzsiz rol oynayır;

4. Motivin müstəqil sürətdə əmələ gəlməsini ehtiva edir (5. səh.148).

Motivlər hər bir fəaliyyət sahəsində özünəməxsus şəkildə təzahür edirlər. Bu mühüm xüsusiyyəti nəzərə alaraq biz motivləri konkret fəaliyyət növünə əsasən aşağıdakı kimi qruplaşdıra bilərik:

- oyun;
- təlim;
- əmək və yaradıcılıq motivləri.

İnsanı aktivləşdirən hər hansı cisim, hadisə və situasiya fəaliyyətin motivi ola bilər. Fəaliyyətin bu kimi mənbələrini üç kateqoriyaya ayırmaq olar:

1. Daxili mənbələr. Onlar insan tələbatının strukturu ilə əlaqədardır. Daxili mənbələr anadangəlmə - bioloji və həyatda qazanılma – ictimai səciyyə daşıyır. Qida birinci, informasiya isə ikinci fəaliyyət mənbəyi növünə misal ola bilər.

2. Xarici mənbələr. Bu mənbələr insan fəaliyyətinin ictimai şərtlərilə (cəmiyyətin fərdə verdiyi tələblər, fərdin yetişməsinə imkan yaradan şərait, fərdin inkişaf göstəriciləri və onların cəmiyyətdə rolu və s.) əlaqədardır.

3. Şəxsi mənbələr. Bu mənbələr şəxsiyyətin strukturu, maraqları, cəhdləri, dünyagörüşü və s. ilə əlaqədardır.

Fəaliyyətin bütün bu mənbələri qarşılıqlı əlaqədə cərəyan edir və təlim prosesinin səmərəli təşkilində mühüm rol oynayır (16, səh.550).

Fərq yaradan ilk cəhət həmin motivlərin tamamilə fərqli təlabatlardan asılı olaraq yaranmasından ibarətdir. Bu baxımdan təlabatlar kimi motivləri də təbii və ali (maddi və mənəvi) olmaqla qruplaşdırmaq olar. Motivasiya şəxsiyyətin yönəlişliyini və səmərəliliyini təyin edən motivlərin vəhdətidir. Motivasiya müxtəlif əlaqələrin və münasibətlərin əlaqələndirilməsində də rol oynayır.Şəxsiyyətin motivləri onun fəaliyyətinin istiqamətini müəyyən edir. Fəaliyyətin konkret xarakteristikası motivlə deyil, məqsədlə müəyyən olunur. Eyni motiv əsasında müxtəlif məqsədlər formalaşır. Eyni zamanda məqsəd müxtəlif şəxslərdə müxtəlif motivlərlə bağlı meydana gəlir. Motivlərlə məqsədin dialektik bir əlaqəsi vardır. Qeyd edək ki, bir çox hallarda motivin psixoloji funksiyası eyni ola bilir: bu halda o insanı hər hansı fəaliyyətə təhrik edir və həmin fəaliyyət sahəsinin istiqamətini müəyyənləşdirir. Adı çəkilən təhriketmə və istiqamətləndirmə cəhətləri hər zaman bir-birilə əlaqədə olur və vəhdət təşkil edir. Onlar adətən motivasiyanın funksiyası rolunu oynayır (5. səh. 146).

Müəyyən olunmuşdur ki, cəmiyyətin inkişafının müxtəlif dövrlərində şagirdlərin oxumasında bu və ya digər qrup motivlər üstünlük təşkil edir. Qrup halında olan motivlər yaranan şəraitdən asılı olaraq öz aralarında dinamik əlaqədə olurlar. Bu əlaqə nəticəsində oxumağın hərəkətverici qüvvəsi meydana gəlir. Bu qüvvənin xarakteri, istiqaməti motivlərin ümumi təsir gücü ilə müəyyən olunur (15, səh.250).

Təlim həm təhsilləndirici, həm tərbiyəedici, həm də inkişafetdirici vəzifələri kompleks və sistematik şəkildə həyata keçirir.

Təlim prosesinin idarə edilməsi və düzgün təşkili onun modelləşdirilməsindən asılıdır. Təcrübə göstərir ki, təlim təkcə öyrədicilik qabiliyyəti ilə kifayətləndirilməməli, həm də təhsil verməli və inkişaf xüsusiyyətlərinə malik olmalıdır. Təlim prosesinin uğurlu icrası üçün müəyyən maraq və meyllərin mövcudluğu mütləq xarakter daşıyır ki, həmin sistemi aşağıdakı kimi interpretasiya etmək mümkündür:

Təlim maraqları.

Təlim maraqları şagirdlərdə dərsə müsbət münasibətin formalaşmasında faydalı rol oynayır. Maraq emosional təsirə malik olur, dərin və mənalı hisslərlə əlaqədar fəaliyyətə gəlir. Təlim maraqları seçici xarakter daşıyır. Yalnız kiçik yaşlı məktəblilərdə təlimə ümumi maraq nəzərə çarpır. İbtidai məktəb yaşının axırlarında bu və ya digər fənnə maraq qüvvətlidir. Yuxari sinif şagirdlərində isə təlimə seçici maraq daha qabarıq şəkildə ifadə olunur. Təlim materialının mənimsənilməsində öyrənilən materialın şagird şəxsiyyətinin formalaşması üçün böyük əhəmiyyətə malik olması, materialın şagirdlərin başa düşə biləcəkləri tərzdə şərh edilməsi, təlim metodlarının rəngarəngliyi mühüm rol oynayır. Şagirdlərdə təlim maraqlarını inkişaf etdirməklə, müəllim dərsi əyləncə şəklinə salmamalıdır. Çalışmaq lazımdır ki, şagirdlər mənimsədikləri materialın məzmunu və siyasi mahiyyətini dərindən başa düşsünlər. Həmin məlumatları mənimsəmənin insanın həyat və fəaliyyəti üçün zəruri olduğuna inansınlar. Hər yeni material köhnə ilə əlaqədar tədris edildikdə də şagirdlərin təlimə marağı artır. Məhz bu kimi hallar məktəblilərdə səmərəli təlim maraqlarının formalaşmasına və inkişafına imkan yaradır(13, səh.69).

Motivasiya və Öyrənmə.

Məktəbə keçid uşağın həyat tərzinin əsaslı surətdə dəyişməsinə səbəb olur. Bu zaman yeni və vacib olan təlim fəaliyyəti uşağın həyatında əsaslı mövqe tutmağa başlayır. Təlim uşağın davranışının motivlərini əsaslı surətdə dəyişdirir, onun intellektual və əxlaqi keyfiyyətlərinin inkişafının başlıca hərəkətverici qüvvəsinə

çevirir. Qeyd edək ki, öyrənmə motivlərinə təsir edən bir sıra daxili və xarici faktorlar vardır. Xarici faktorlar olduqca müxtəlifdir. Xarici faktorlar insanı əhatə edən ətraf mühit ilə kəskin şəkildə əlaqəlidir.

Daxili faktorlar ictimai və fiziki vəziyyət ilə əlaqədardır və insanı daha çox öyrənməyə yönəldən əlaqələr, diqqət səviyyəsi və şəxsi xüsusiyyətlərlə səciyyələnir. Belə ki, daxili faktorlar olmadan xarici faktorların hərəkətə gəlməsi qeyri-mümkündür. Unutmaq olmaz ki, uğur əldə etmənin başlıca yolu qarşıya qoyulan məqsədə doğru inamla addımlamaqdan keçir. İnsanın informasiya bazası zənginləşdikcə onun öyrənmə motivlərinin sayı da əhəmiyyətli dərəcədə artır. Daxili və xarici motivlərin qaynaqlandığı müəyyən bir mənbə mövcuddur və onların tədqiqi kompleks yanaşma tələb edir. Şagirdin təlim motivlərinin aşkar olunması və inkişaf etdirilməsi daxili və xarici mənbələrdən asılıdır. Bu mənbələrə şagirdlərin fərdi-psixoloji keyfiyyətləri, qavrama xüsusiyyətləri və s. aid edilə bilər. Bəzi mənbələr vardır ki, onların meydana gəlməsi ixtiyarı şəkildə təzahür edir. Aşağıda şagirdin özündən asılı olan mənbələr ayırd edilir:

- Şagirdin şəxsi keyfiyyətləri, hədəfləri, məqsəd və niyyətləri;
- Psixoloji, bioloji impulsiv keyfiyyətlər və insani ehtiyacları;
- Özünütanıma, özünəinam və özünəhörməti;
- İnanclar, dəyərlər, gözləmələr, müvəffəqiyyət və ya müvəffəqiyyətsizlik hədəfləri;
- Fərdi faktorlar, məsələn stressə davamlılıq, maraqlar, ətraf mühitə göstərilən cavab reaksiyaları və s.;
- Valideyn, müəllim heyəti və yoldaşlar ilə münasibəti;
- Sinifin strukturu;
- İctimai qarşılıqlı təsirlərin nəticələri;
- Məktəbdə cəzalandırılma və mükafatlandırılma;
- Yeniliyə göstərilən cavab reaksiyaları;
- Yaşlıların şagirdə qarşı olan gözləntiləri;
- Performans növləri;
- Şagirdlərdə özünəinamı stimullaşdıran, diqqəti inkişaf etdirən amillər.

Sadalananlardan məlum olur ki, şagirdlərin təlim motivlərinin inkişafı müəyyən səbəblərdən asılıdır. Bu səbəblər uşaqların fərdi-psixoloji keyfiyyətlərindən asılı olaraq da dəyişə bilər. Məsələn, bir şagirddə müəyyən fənnə olan maraq hissinə digər şagirddə təsadüf gəlinməyə bilər. Buradan belə bir nəticəyə gəlmək mümkündür ki, kiçik məktəb yaşlı uşaqların təlim motivlərinin inkişafında fərdi-psixoloji keyfiyyətlərinin və fərdi fərqliliklərinin rolu böyükdür.

Təbiətdə hər hansı bir obyektin öz statik vəziyyətindən digər hərəkətli vəziyyətə keçməsi üçün müəyyən bir səbəb olmalıdır. Belə ki, insan orqanizminin hərəkət etməsi, davranış tərzi nümayiş etdirməsi üçün də qanuni səbəblərin olması şərtdir. Bu səbəb insanın daxili aləmini ifadə edən müəyyən bir təzyiq, impuls və ya itələyici xarakter daşıyan motivasiya sistemi olmalıdır.Motivasiya bir növ həvəsləndirici xüsusiyyətə malikdir. Müsbət motivasiyanın təsiri altında həyata keçirilən fəaliyyət növü ilə mənfi motivlərlə təhrik edilmiş fəaliyyət növünü müqayisə etsək, birinci halda daha çox nailiyyət əldə olunduğunun şahidi olarıq. Öyrənmə motivasiyası da məhz bu qəbildəndir. Öyrənmə motivlərinin faydalı olması üçün öyrənən fərdin fəaliyyət sahəsi onun daxili meyl və maraqlarına uyğun şəkildə təşkil olunmalıdır. Məsələn, şagirdlərin təlim motivlərinə yönəldilməsi məqsədilə həvəsləndirmə və ya mükafatlandırma metodlarından istifadə etmək olar.

Motivlərin öyrənilməsi ən çətin praktiki məsələlərdən biridir. Əgər qarşıda təlimin keyfiyyətini yüksəltmək məqsədi qoyulursa, həmin məsələni həll etmək olduqca vacibdir. Öyrənmənin (öyrənməyə qabilliyin, təlim prosesinin) hərəkətverici qüvvələri haqqında dəqiq təsəvvürlər olmadıqda isə həmin məqsədə nail olmaq mümkün deyildir (15. səh.255).

Hər bir təlim fəaliyyəti müəyyən motiv əsasında təşəkkül tapır və müəyyən situasiyada cərəyan edir. Təlim motivlərini iki qrupa ayırmaq olar: xarici və daxili motivlər. Xarici motivlər insanı xarici fəaliyyətə təhrik edən amillərdir. Belə motivlərdən cəzalandırma və rəğbətləndirmə, qorxu və tələb, yarış və qrupun təzyiqi, tərif və düzlüyü sevmək və s. göstərmək olar. Bütün bunlar öyrənmə məqsədinə nisbətən xarici amillər hesab edilir. Belə hallarda bilik və bacarıq əsasməqsədə - maneələrdən uzaqlaşmaq, intiqam və şəxsi müvəffəqiyyətlərə nail olmağa yönəlmiş

olur. Belə struktura malik olan situasiyanı məqsədyönlü zəruri situasiya adlandırmaq olar. Belə olan halda məqsəd fəaliyyəti müəyyən edir, lakin onun təşəkkül tapmasına imkan vermir. Bu situasiya hadisələri konfliktə gətirib çıxara bilər. Konflikt qüvvətləndikdə situasiyadan çıxmaq, çətinlikdən qorxmaq və nevroz vəziyyətləri yarana bilər. Bu kimi hallarda şagird ya məktəbi tərk edir ya da oxumaqdan əl çəkir (16, səh.60).

İnsanı məqsədə təhrik edən motiv isə daxili motivdir. Daxili motivlərə misal olaraq bilik öyrənməyə maraq, şəxsi mədəni keyfiyyətlərin yüksəldilməsi arzusu, müəyyən bacarığa yiyələnmək istəyi, təlim prosesində tapşırıqların uğurla həll edilməsi ola bilər.

Motivasiya hər hansı bir məqsədə istiqamətlənmiş şəkildə inkişaf edir. Əmək fəaliyyəti prosesində göstərilən səy, çəkilən zəhmət sonda statusun və əmək haqqının yüksəldilməsinə xidmət edir. Yəni bütün “səbəblər müəyyən nəticə” əldə edilməsinə yönəlir.

Motivasiyanın inkişafına təsir göstərən faktorlar

Kiçik yaşlı uşaqlar gerçəkliyin bu və ya digər dərəcədə hadisələrin bədii sənət və musiqi əsərlərində necə əks olunduğunu gördükdə onların gözəllik haqqında təsəvvürləri təkmilləşir, onlarda bədii, estetik zövq formalaşır. Bütün bunlar gənc nəsildə əxlaqi keyfiyyətlərin təşəkkül tapmasına və daha da təkmilləşməsinə nə üçün belə əhəmiyyət verdiyimizin səbəbini aydın göstərir (2, səh. 6).

Motiv bilik, davranış, ətraf mühit və digər fərdi faktorların qarşılıqlı təsiri nəticəsində ortaya çıxır. Haqqında danışılan fərdi faktorlaraşağıdakı kimi qruplaşdırılır:

1.Qayğılar;

2.Ehtiyaclar;

3.İnanclar;

4.Məqsədlər.

Qayğılar:Orqanizmin hər hansı fəaliyyət növünü icra etməsi üçün hazır vəziyyətə gətirilməsini ehtiva edir.

Ehtiyaclar: Ehtiyaclar arzuların və gərəkli təlabatların əksik olduğu halda biruzə verir. Əksiklik qəbul edilmiş və gerçək halda ola bilər. Həmçinin ehtiyacların sadə və konkret, kompleks şəkildə mücərrəd formaları da vardır.

İnanclar:Uşaqların motivasiyasının inkişaf etdirilməsinin üçüncü vacib faktoru onların inancları ilə bağlıdır. Özünəinam və etibar, özünüqiymətləndirmənin yüksək olması olduqca vacib əhəmiyyət kəsb edir.

Məqsədlər: Şagirdlərin dərs proqramı ilə əlaqədar məqsədləri onların təlim motivlərinin yüksək səviyyədə inkişafına təsir göstərir. Müəllimlər şagirdlərin məqsədlərini və onların reallığa uyğunluq dərəcəsini daim nəzarətdə saxlamalıdırlar. Beləliklə, dərs prosesində müvəffəqiyyət əldə olunması imkanı daha yüksək olur və şagirdin təlimə olan marağı artır.Uşaqların düzgün istiqamətləndirilməsi olduqca vacib əhəmiyyət kəsb edir.

Uşağın qoşulduğu yeni fəaliyyət forması-təlim xüsusi fəaliyyət növü kimi oyun və əməkdən fərqlənir. Təlim vasitəsilə məktəbli, sistematik olaraq təbiət, cəmiyyət, insan fəaliyyətinin nəticələri haqqında elmi məlumatlara – bilik, bacarıq və vərdişlərə yiyələnir. Əmək fəaliyyəti yeni məhsulların yaradılmasına yönəldiyi halda, təlim elmi biliklərin mənimsənilməsinə xidmət edir. Uşaqlar bu prosesdə müəllimin rəhbərliyi altında elmi anlayışlar sisteminə, bacarıq və vərdişlərə yiyələnirlər (2, səh.226).

Şagirdlərdə təlim motivlərinininkişaf etdirilməsiyolları

ARCS Modeli

Şagirdin öyrənmə, bilik və bacarıqlar sisteminə yiyələnməsinə xidmət edən motivlərin inkişafı, həmçinin professional təhsil proqramlarında iştirakının təmin olunmasının əhəmiyyəti çox vaxt diqqətdən kənar qalır. Halbuki təhsil proqramlarında iştirakın təmin olunması ən vacib komponentlərdən biridir. Məlumdur ki, şagirdlərə tədris edilən mövzu maraqsız olduğu halda öyrənilən material bir müddət sonra unudulur. Bunun səbəbi şagirdlərin kifayət qədər stimullaşdırılmamasıdır. Məhz bu məqsədlə 1987-ci ildə John Keller motivasiya mövzusunda edilən araşdırmaları dərinləşdirərək ARCS modelini (1987) elmə gətirmişdir.

ARCS motivasiya modeli, tədris prosesində effektivliyin artırılması və təlim mühitinin şəffaflaşdırılması məqsədilə Keller tərəfindən hazırlanmış təlimat modelidir (Əsas, 1993; Spitzer, 1996; Keller və Kopp, 1987).

ARCS motivasiya modelinin əsas komponentləri aşağıdakılardır:

- Diqqət(Attention),
- Uyğunluq(Relevance),
- Etibarlılıq(Confidence),
- Məmnunluq (Satisfaction)

Bu motivasiya modelinin adı yuxarıda qeyd edilən komponentləri təşkil edən sözlərin ilk hərflərindən götürülmüşdür. Motivasiya və öyrənmə arasındakı əlaqəni izah edən John M. Keller'in Motivasiya Modeli, bir çox anlayış və nəzəriyyələrin köməyi ilə daha da inkişaf etdirildi (Keller və Kopp, 1987). Bu model üç keyfiyyətə malikdir (Keller, 1983):

Birinci - modelin nəzəri quruluşu diqqəti cəlb edir. Çünki, Keller modeli (1979) sözün əsl mənasında aydın bir motivə əsaslanır. Bu keyfiyyət motivasiya ilə bağlı xarakterik dəyişənlərin müəyyən edilməsi üçün elmi əsasların yaradılması baxımından çox vacibdir.

İkinci –bu model motivasiya və təlim nəzəriyyələrinin birləşməsindən ibarətdir. Buna görə də, rahat istifadə edilə bilər.

Üçüncü - model motivasiyaya aid problemləri müəyyənləşdirmək və həll etməyə kömək edən strategiyaları ehtiva edir. Bu yollar vasitəsilə təlim prosesini daha da inkişaf etdirmək mümkündür.

1. DİQQƏT (Attention).Bu motivasiyanın ilk addımdır. ARCS motivasiya modelinin ən vacib və ilk elementi olaraq tələbənin diqqətinin cəlb edilməsi və təlim prosesi boyunca sabit saxlanılmasına xidmət edir. Diqqət anlayışı maraqların yaradılması, stimullaşdırılması və davam etdirilməsi kimi qavranılır. Kellerə görə, motivasiyanın ilk addımı diqqət çəkmək və onun qorunmasından ibarətdir. Təcrübə göstərir ki, təlim sisteminin elektronlaşdırılması şagirdlərin diqqətinin cəmləşdirilməsində böyük üstünlüyə malikdir. Bu öyrənmə məzmununda

məlumatların təqdim edilməsi üsullarının hamısı istifadə olunur. Bu üsullar yazılı ifadə, vizual ifadə, səsli hekayə və animasiya formasında təklif edilə bilər.

Təlim prosesində motivasiyanın inkişaf etdirilməsinin ən üstün strategiyası dərsə qarşı diqqət yaratmaq və həmin proses boyu maraqların qorunub saxlanılmasından ibarətdir. Bu strategiya öyrənilənlərə marağı artırır. Bu strategiyada 3 sub-component var:

- Davamlılıq-qeyri-müəyyən, müxtəlif, yeni və maraqlı mühitin yaradılmasını təmin edir;

- Sorğu-tələbələri problemləri həll etməyə və suallar verməyə təşviq edir;

- Dəyişkənlik-tədrisə maraq göstərilməsi üçün şagirdlərə müxtəlif təlimat materiallarının təqdim edilməsinə xidmət edir.

2. UYĞUNLUQ(Relevance). Bu mərhələ şagirdin maraq və meylləri, ehtimal və ehtiyaclarının əlaqələndirilməsi və öyrənilən materialın dərk olunması haqqında nəticəni əhatə edir. Məsələn, şagirdi hər hansı kursa cəlb etmək istədikdə onda “Mən bu kursa nə üçün cəlb olunmalıyam?” kimi suallar meydana gələ bilər. Kursun şagirdə geniş bilik imkanları verəcəyi və təlim bacarıqlarının artmasına səbəb olacağı barədə vədlər onda motivasiyanı artıracaqdır. Qeyd edilən strategiyanın alt komponentləri aşağıdakılardır:

-Yaxınlıq və ya tanışlıq (Familiarity):Təqdim edilən materialların şagirdlərin bilik, bacarıq, maraq və meyllərinə uyğunlaşdırılması bu strategiyanın əsasını təşkil edir;

- Məqsədyönlük (Goal Arientation): Özündə təlimin(kursun) məqsədini ehtiva edən tələblərin ifadə edilməsi və bu tələblərin şagirdlər tərəfindən müəyyən olunmasını əhatə edir.

- Motivlərin uyğunluğu (Motiv matching):Təlim strategiyalarının şagirdlərin motivasiya uyğunlaşdırılmasını nəzərdə tutur.

3.ETİBARLIQ və ya İNAM (Confidence): Bu strategiya şagirdlərdə təlim prosesində müvəffəqiyyət əldə edəcəklərinə dair pozitiv təfəkkürün formalaşdırılmasına xidmət edir. Şagirdlər, onların müvəffəqiyyət ehtimalları və şəxsi xüsusiyyətləri onları əhatə edən bütün amillərdən (müəllim, məktəb rəhbərliyi,

ailə və s.) təsirlənirlər. Bundan əlavə, dərs yükünün ağırlığı da şagird şəxsiyyətinə təsir edən amillərdən biridir. Dərs yükünün çatdırılması haqqında fikirlər şagirdi əlavə qayğılarla əhatə edəcək və təlim motivləri azalacaqdır. Bu baxımdan dərs yükü yaş xüsusiyyətlərinə uyğun təşkil edilməlidir. Etibarlılıq strategiyası da məhz bu məqsədə xidmət edir. ARCS modelinin qeyd edilən bölməsi şagirdlərdə özünəinam formalaşdırılmasını tələb edir. Bu strategiyanın özünün müəyyən tərkib hissələri vardır ki, onlar aşağıdakılardır:

- Müvəffəqiyyətə istiqamətlik(Expentancy for Success):Şagirdlər uğur əldə edəcəklərinə inanmalı və bunun müvafiq yollarını bilməlidirlər.

- Özünü yoxlamaq xüsusiyyəti (Challenge Setting): Şagirdlərin uğur əldə edə bilməsi üçün onların fürsət və imkanlarla təmin edilməsi.

- Dəstək statusu (Attribution moding): Müvəffəqiyyət əldə etmək istəyən şagirdlərin dəstəklənməsi, onların göstərdiyi səylərin və bacarıqlarının nəzərə alınması.

4. MƏMNUNLUQ (Satisfaction). ARCS induksiya modelinin son tərkib hissəsi təmin olunma və məmnunluq ilə tamamlanır.Şagirdlər qarşıya qoyulan məqsədlə sərf edilən enerji və görülən işlər arasında uyğunsuzluq gördükdə, onlarda demotivasiya prosesi baş qaldıracaqdır. Bu baxımdan, qeyd edilən tərkib hissə şagird bacarıqlarının artrılması, onların həm daxili, həm də xarici motivlər vasitəsilə həvəsləndirilməsinə xidmət edir. Mütəxəssislər şagirdlərin istiqamətləndirilməsi və motivasiyanın inkişaf etdirilməsi məqsədilə düzgün möhkəmləndirmə üsullarından istifadə etməlidirlər (Keller və Kopp, 1987; Main, 1993). Təlim prosesinin sonunda əldə edilən nəticələr həm mütəxəssis (müəllim), həm də öyrənən (şagird) heyətində məmnunluq və təmin olunma hissi oyatmalıdır. Bu bir növ mükafat rolunu oynayır. Bu tərkib hissənin başlıca məqsədlərindən biri əldə edilən nəticənin praktiki tətbiqindən ibarətdir. Daxili aləmlə xarici aləm arasındakı tarazlıq təmin edilməlidir (Köymen, 2000). Məmnunluq strategiyasının alt komponentləri aşağıdakılardır:

- Təbii nəticələr (Natural Consequences):Öyrənilən materialın istənilən vəziyyətdə tətbiq edilmə qabiliyyətinin olması;

- Müsbət nəticələr (Positive Consequences): İstənilən davranışındavam etdirilməsi üçün zəruri münasibət bildirilməsi və rəy verilməsi;

- Bərabərlik(Equity):Müsbət nəticə əldə edilməsi üçün qarşıya qoyulan məqsədlərlə nəticələrin uzlaşdırılmasına nail olmaq lazımdır (Keller, 1987a; Keller, 1987b; Keller və Kopp, 1987 (24).

Motivasiyanın gücləndirilməsinə təsir göstərən mühüm xüsusiyyətlərdən biri də şagirdlərin mükafatlandırılmasıdır. Kiçik məktəb yaşlı uşaqların təlim motivlərinin inkişaf etdirilməsi məqsədilə onları həvəsləndirici metodlarla mükafatlandırmaq lazımdır. Bu əldə olunan nailiyyətlərin davamlılığına gətirib çıxarır. Həmçinin qeyd edək ki, kiçik yaşlı uşaqların müsbət əxlaqi keyfiyyətlərinin, mənəviyyatının inkişafında milli mənlik şüurunun da formalaşması olduqca vacib əhəmiyyət kəsb edir.

## 1.2. Problemin tədqiqi istiqamətləri

Təlim prosesinin əsas obyektini canlı insan (şagird, müəllim və s.) qrupu təşkil etdiyindən bu prosesdə müəyyən ziddiyyətlər nəzərə çarpa bilər. Bu ziddiyyətlər müxtəlif cür təzahür edə bilər. Bundan başqa təlim prosesi davamlı olaraq inkişaf edən bir prosesdir. Odur ki, ziddiyyətlərin olması müsbət hal olaraq da qiymətləndirilə bilər. Təlim prosesində ziddiyyət dedikdə,illər boyu və sivilizasiya inkişaf etdikcə əldə edilən biliklərin şagirdin əldə etdiyi biliklərlə təzad təşkil etməsi olaraq başa düşülür. Belə bir nəticəyə gəlinir ki, problemli situasiyanın həll edilməsi təhsilin məzmununun yaxşılaşdırılmasına xidmət edir.

Bəşəriyyət yarandığı ilk gündən bu günümüzədək keçdiyi intibah dövrü və əldə edilən təcrübə və informasiya kütləsi cəmiyyət tərəfindən tam olaraq assimilyasiya edilə bilinməyəcək dərəcədə zəngin və çoxdur. İnsanlar adətən fərdi təlabatlarına uyğun araşdırmalar aparır və cəmiyyətin təlabatına uyğun məlumatları seçirlər. Bəzi məqamlar isə işıqlandırılmır. Bu baxımdan informasiya seçimi nisbətən dəqiq və səlis olmalıdır. Məsələn, təlim prosesində uğur əldə etmək və gələcəkdə müstəqil şəkildə "öyrənmə" bacarıqlarına yiyələnmək üçün əsas idrak metodları (təhlil, sintez, ümumiləşdirmə, modelləşdirmə və s.) mənimsənilməli və tətbiq edilməlidir.

Şagirdlər praktiki vəzifələri icra etdikləri zaman həmin vəzifələr və fərdi bacarıqları arasında təzahür edən bir sıra ziddiyyətlərlə qarşılaşa bilərlər. Odur ki, təlim prosesinin ilk mərhələsində şagirdlərin fərdi-psixoloji keyfiyyətləri müəllim tərəfindən qiymətləndirilməlidir. Bir növ "ibtidai sinifin xəyali konsepsiyası" yaradılmalıdır.

Müasir dövrdə informasiya əldə etməyin müxtəlif və asan vasitələri, mənbələri vardır (kiv, internet, sosial şəbəkələr və s.). Bu cəhət müasir cəmiyyətə xidmət edən müəllimin işini kifayət qədər asanlaşdırır və məlumatları əlçatan edir. Bu baxımdan ibtidai sinif müəllimlərinin üzərində xüsusi məsuliyyət düşür.Yaranan ziddiyyətli məqamların aşkar olunması şagirdlərdə adaptasiya mərhələsində rast gəlinən çətinliklərin aradan qaldırılmasına, ziddiyyətli məqamların həll edilməsinə, təlim prosesinin və ona aid olan tərkib hissələrin (təlimin məzmunu, metodları və

formaları) inkişaf etdirilərək təkmilləşdirilməsinə, eyni zamanda şagirdlərdə zehni inkişaf, fəallıq və müstəqilliyin möhkəmləndirilməsinə səbəb olur. Bütün bu qeyd edilən şərtlər tərbiyəçidən yüksək peşəkarlıq tələb edir.Nəzərə alınmalıdır ki, ibtidai sinif insan həyatının dönüş nöqtəsidir. Təlimə olan marağın yaranması və təlim motivlərinin inkişafı məhz bu mərhələnin uğurlu təşkilindən asılıdır.

Təlim prosesi şüur mexanizminin inkişafına təkan verir. Şüurun inkişafı prosesində uşaqların varlığı əks etdirməsinin məzmunu, strukturu və mexanizmi təkmilləşir. Bu proses uşağın fikri fəaliyyətinin xüsusiyyətlərinin dəyişməsində daha qabarıq şəkildə üzə çıxır. Məsələn, kiçik məktəb yaşlı uşaqlar tədricən cisim və hadisələrin mahiyyətini dərk etməyə, anlayışları təhlil etməyə başlayırlar. Uşaqların təfəkkür tərzi nə qədər yüksək olsa, anlayışları bir o qədər düzgün dərk edə bilərlər (4,səh.31). Şüurlu inkişafın əsas göstəricilərindən biri cisim və hadisələri analiz və sintez etmək, əlaqələndirməkdən ibarətdir. Uşaq böyüdükcə, onda bu kimi keyfiyyətlər inkişaf etməyə başlayır və nəhayət, şagird özü ilə əşyalar arasında əlaqələrin məzmununu – öz hərəkətlərinin məzmun və mahiyyətini və öz “mən”ini dərk etməyə başlayır. Beləliklə, təlim prosesində uşaqların biliyinin inkişafı və fəaliyyət üsullarının təkmilləşməsi, mənimsənilmiş fəaliyyət üsullarının mexanizminin inkişafı və şəxsiyyətin ümumi keyfiyyətlərinin inkişafı bir vəhdət halında uşaq psixikasının inkişafını təmin edir (4, səh.32).

Belə ki, yuxarıda qeyd olunanları nəzərə alaraq deyə bilərik ki, uşaqlarınyaş dövrünün (kiçik məktəb yaşı) xüsusiyyətləri nəzərə alınmadan təlimin inkişafı barədə düzgün rəy vermək mümkün deyildir.

Kiçik məktəbyaşlı şagirdin müxtəlif bilik sahələrinə olan marağı, təlim prosesi haqqında fikirləri bu və ya digər yaş dövrünün səciyyəvi xüsusiyyətləri qabiliyyətlərin formalaşmasında da mühüm rol oynayır.

A.N.Leontyevin aşağıdakı fikri əqli qabiliyyətlərin inkişafı prosesini bu baxımdan təhlil etməyə imkan verir: “Uşağın əqli inkişafını bütövlükdə onun psixi inkişaf səviyyəsindən, mənəvi simasını müəyyən edən maraqlarının, hisslərinin və başqa əlamətlərinin zənginliyindən ayrılıqda nəzərdən keçirmək olmaz.”(58).

Kiçik məktəblinin ümumi intellektual inkişafında onun müvafiq bilik, bacarıq və vərdişlərə yiyələnməsində yüksək səviyyədə təşkil olunmuş təlim prosesinin müstəsna əhəmiyyəti vardır. Təlim fəaliyyətinin və onun məzmunun özünəməxsus fərqləndirici əlamətləri də vardır. Təlim fəaliyyətinin əsas məzmununu elmi məfhumlar və qanunauyğunluqlar, habelə onlara əsaslanan praktik məsələlərin həllinin ümumi üsulları və ya vasitələri təşkil edir. Başqa mənimsəmə şəraitində isə müvafiq anlayışa və ya məlumata yiyələnmə əlavə bir məqam kimi özünü büruzə verir. Məsələn, uşaq oyun və əmək prosesində özünəməxsus vəzifələri həyata keçirməklə yanaşı əlavə olaraq müvafiq bilik, bacarıq və vərdişlərə də yiyələnir. Halbuki sonunculara yiyələnmə oyun və əmək prosesində başlıca və ya ilkin vəzifəni təşkil etmir (66 səh.10).

Kiçik məktəb yaşı dövründə uşağın əqli inkişafı elmi əsaslar istiqamətində davam edir. Odur ki, təlim prosesində uşağın çoxcəhətli fəaliyyəti və onun səmərəli təşkilinin uşağın hərtərəfli inkişafında müstəsna əhəmiyyət vardır. Təlim prosesinin elmi əsaslar üzərində qurulmasında ümumi və xüsusi xarakter daşıyan təlim işləri sisteminin formalaşdırılmasının rolu böyükdür. Təlim prosesində mənimsəmə qaydalarına yiyələnməyən uşaqlar ayrı-ayrı fənləri və onların müxtəlif hissələrini yüksək səviyyədə öyrənmək imkanından məhrum olurar. Onlar məfhumlara yiyələnərkən əzbərçiliyə və onların xarakteristikasına meyl edirlər. Bununla əlaqədar olaraq sovet psixoloqu V.V.Davıdov yazır ki, kiçik məktəb yaşlı şagirdlərdə xüsusi olaraq təkidlə tələb olunan təlim fəaliyyəti sistemini formalaşdırmaq lazımdır. Məhz belə şəraitdə müxtəlif xarakterli təlim materiallarının şüurlu sürətdə yadda saxlanılması və sonradan yadasalınması vəzifəsi müvəffəqiyyətlə yerinə yetirilə bilər(10, səh. 11-12)

Bildiyimiz kimi, uşaqların psixi inkişafı həmişə bərabər səviyyədə cərəyan etmir. Eyni yaş qrupundan olan uşaqların inkişafında nəzərə çarpan qeyri-bərabərlikdən başqa, uşağın özünün müəyyən yaş dövründə inkişafında müəyyən qeyri-bərabərliklər nəzərə çarpır. Elə hallar olur ki, müəyyən yaş dövrü daxilində uşağın psixi inkişafı gedişində onun bəzi psixi xüsusiyyətləri, keyfiyyətləri daha sürətlə inkişaf edir. Uşağın inkişafının bu məqamı - senzitiv anı və ya mərhələsi

adlanır (4, səh.37).Senzitiv(latınca “sensus” – “hiss, duyğu” deməkdir) dövr uşağın ontogenetik inkişafının mühüm mərhələsini təşkil edir. Bu zaman inkişaf edən uşaq ətraf mühitin müəyyən təsirlərinə xüsusilə həssas olur, psixikanın bu və ya digər istiqamətdə inkişafı üçün əlverişli şərait yaranır (20, səh.61).

Psixi inkişafın senzitiv mərhələsi bütün yaş dövrlərində nəzərə çarpa bilər. Məsələn, nitqin inkişafı üçün senzitiv dövr 1-5 yaşları əhatə edir. Kiçik məktəb yaşı dövrü hərəki vərdişlərin yaranması üçün senzitiv mərhələ hesab edilə bilər. Böyük məktəb yaşı dövrü məntiqi hafizə, mücərrəd təfəkkürün inkişafı üçün senzitiv dövr hesab edilə bilər. İnkişafın senzitiv mərhələsi fizioloji inkişaf prosesində beyinin yetkinləşməsi, bu və ya digər sinir mərkəzinin qüvvətli fəaliyyət göstərməsi ilə əlaqədardır. Müəllim uşağın inkişafının senzitiv xüsusiyyətləri ilə yaxından tanış olmalı, xüsusilə qabiliyyətlərin formalaşması qanunauyğunluqlarını bilməli və senzitiv mərhələdə təlim prosesinin səmərəli təşkilinə xüsusi diqqət yetirməlidir (14, səh.37).

Psixoloji nöqteyi nəzərdən dəyərləndirsək, uşaqların müəyyən funksiyaları icra etməsi üçün əlverişli olan dövrlər müəyyən pedaqoji və psixoloji təsirlərə qarşı həssas olan dövrlərdir. Bu mərhələ senzitiv dövr adlanır. Məsələn, doğma dilin öyrənilməsi üçün ən əlverişli dövr 1-5 yaşları əhatə edir. Erkən uşaqlıq dövründə qavrayış şüurun mərkəzində olur və istənilən proses müvəffəqiyyətlə yerinə yetirilə bilər. Yaddaş, təfəkkür qabiliyyətlərinin inkişafı üçün məktəbəqədər dövr ən həssas dövr olaraq qiymətləndirilir.

Psixi inkişaf zaman - yəni heteroxroniklik, yəni fərdi zehni funksiyaların qeyri-bərabər inkişafının fenomeni ilə əlaqədar kompleks bir sistemə malikdir.

Əsas göstərişlər:

1) Həssas dövrlər;

2) Sonrakı mərhələlərlə müqayisədə ontogenezin erkən mərhələlərində psixikanın sürətli inkişafı.

Hər yaş mərhələsinin öz tempi və ritmi var. İnsan zəkasın ən sürətli inkişaf dövrü doğulandan 3 yaşadək qiymətləndirilir. Uşağın yaşı nə qədər azdırsa, intellektual inkişaf səviyyəsinin yüksəldilməsi şansı da bir o qədər yüksəkdir. Aydın

məsələdir ki, senzitiv yaş dövrü hələ öz-özlüyündə qabiliyyətlərin inkişaf səviyyəsini müəyyən etmir. Bunun üçün məktəbəqədər və ya kiçik məktəbli yaşı dövründə müvafiq qabiliyyətin inkişafı üçün əlverişli pedaqoji şərait yaradılmalıdır. Unutmaq olmaz ki, uşaq inkişaf etdikcə onun yaradıcı fəaliyyəti də mürəkkəbləşir və yeni keyfiyyətlər kəsb edir. Uşağın yaradıcı fəaliyyətinin inkişafı həm də onun bir sənətkar kimi formalaşması prosesidir. Təlim prosesində bu cəhəti unutmaq, uşağı bir sənətkar kimi fərqləndirən, yaş dövrünün imkan və hüdudlarına sığmayan fərdi xüsusiyyətləri nəzərə almamaq ciddi səhv olardı. Buna görə də uşaqlarda öz yaradıcılıqlarına tənqidi münasibətin yaradılması onlarda nəinki meylin, həm də fəaliyyət və qabiliyyətlərin inkişafı üçün xüsusi əhəmiyyətə malikdir. Çalışmaq lazımdır ki, uşaq öz nailiyyətlərini düzgün qiymətləndirə bilsin, səhvlərini görməyi bacarsın. Bu, uşaqda tənqidi təfəkkürün inkişaf etdirilməsini tələb edir (14, səh.62).

İlk vaxtlar təlim prosesində müəyyən çətinliklərin olması normal hal olaraq qəbul edilə bilər, çünki bağça dövründən məktəb yaşı dövrünə qədər olan müddət keçid dövrü hesab edilir. Bu baxımdan uşaq adaptasiya mərhələsində müəyyən çətinliklərlə qarşılaşa bilər. Kiçik yaşlı şagirdlərin diqqətində dağınıqlıq müşahidə olunur, təlim prosesində uşaqlar özlərini yorğun, əzgin hiss edə bilərlər. Bu kimi hallarda tərbiyəçinin peşəkarlığı öz sözünü deməlidir. Uşaqlara qarşı xüsusi qayğı və diqqət ilə yanaşmaq lazımdır. Diqqətin düzgün istiqamətləndirilməsi olduqca mühüm şərtdir. Həmçinin qeyd edək ki, yeni kollektivə daxil olan uşaqlar ünsiyyət çətinliyi ilə də qarşılaşa bilərlər. Məhz bu zaman tərbiyəçi (müəllim) uşaq kollektivinin fərdi-psixoloji xüsusiyyətlərinə dərindən bələd olmalı və lazımi tədbirlər görməlidir.

Qeyd edək ki, uşaqların diqqəti onların maraqları ilə sıx əlaqədardır. Maraq isə eyni zamanda diqqətin güclənməsinə gətirib çıxarır. Kiçik məktəb yaşlı uşaqlar müxtəlif məsələlərlə maraqlanır və çoxlu suallar verirlər. Onların suallarını cavablandırmaq mütləqdir (53).

7-11 yaşlı uşaqlar, xüsusilə I-IIsinif şagirdlərində diqqətin davamlılığı bir o qədər güclü olmur. Onlar öz diqqətlərini hər hansı bir obyekt üzərində 10-15 dəqiqədən artıq saxlaya bilmirlər (52). Belə ki, bu hal təlim prosesində ciddi fəsad törədə bilər. Ümumiyyətlə, kiçik məktəb yaşlı uşaqlarda diqqətin bütün növləri özünü

biruzə verir, lakin bu proses müəyyən çərçivə daxilində baş verir. Təcrübələr göstərir ki, təlim fəaliyyətinin inkişafı uşaqlarda diqqətin inkişafına da birbaşa təsir göstərir və onu şərtləndirir. Diqqətin paylanması və keçirilməsi prosesi bir o qədər də inkişaf etmir. Kiçik məktəblilər yalnız özlərinin maraq və meyllərinə uyğun obyektləri nəzarətə götürürlər. Hətta bu nəzarət uzunmüddətli də ola bilir. Nisbətən vacib məqamlar onların diqqətindən yayına bilər. Bunu misallarla da təsdiqləmək mümkündür. Uşaqlara təqdim edilən şəkillərin sayı, ölçüsü və digər əlamətləri onları bir o qədər də maraqlandırmır. Şəkillərlə iş, onların rənglənməsi və ya müxtəlif fiqurların düzəldilməsi kiçik yaşlı şagirdlərin maraqlarına daha çox uyğundur.

Kiçik məktəbyaşlı uşaqların diqqəti həcm etibarilə elə də geniş olmur. Eyni zamanda iki iş üzərində diqqətlərini paylaya bilmirlər. Misal üçün, onlar eyni anda yazma və danışma funksiyalarını yerinə yetirə bilmirlər. Bu yaşda uşaqların təfəkkürü nitqlə qarşılıqlı əlaqədə inkişaf edir. Onlarda söz ehtiyatı artmağa başlayır və uşaqlar fikirlərini şifahi və yazılı formada ifadə etməkdə çətinlik çəkmirlər (15. səh.88).

Psixi fenomenlər arasında diqqət xüsusi yer tutur. Uşaqların təsəvvürü, düşüncəsi və digər fenomenlərin qorunmasına yönəldilmiş intellektual fəaliyyətin tənzimlənməsi olduqca vacib zehni aktdır.Diqqət – insanların onlar üçün ən əhəmiyyətli obyekt və hadisələrin ayırd edilərək mənimsəmnməsidir. Uşaqlarda, xüsusən də kiçik yaşlı məktəblilərdə bu proses bir qədər fərqli halda təzahür edir. Uşaqlarda diqqətin inkişaf etdirilməsi yolları aşağıdakılardır:

- Öyrənmə prosesinin tempinin tənzimlənməsi;
- Kifayət qədər diqqətin ayrılması;
- Fəal zehni fəaliyyətin aktivləşdirilməsi (vəzifələrin ümumiləşdirilməsi, müqayisə nümunələrinin aşkar olunması, nəticələrin formalaşdırılması və s.);
- Öyrənmə prosesində diqqətin yayınmasına səbəb olan riskli təsirlərin aradan qaldırılması;
- Stimullaşdırmanın tənzimlənməsi;
- Prosesə başlamazdan əvvəl izahatların aparılması, izahların dəqiqliyinin və aydınlığının təmin olunması.

Müşahidələr zamanı belə bir nəticə əldə edilmişdir ki, kiçik məktəb yaşlı uşaqlarda aşağıdakı hallarda təlim prosesi uğursuz nəticələnir:

- Beyin yorğun olduqda təlim prosesinin effektivlik dərəcəsi azalır;
- Uşaqları digərləri ilə müqayisə etdikdə onlarda özünəinam azalır;
- Dərsə olan marağı artıran hərəkətlərə üstünlük verilməlidir (mövzuya dair şəkillər, posterlər tətbiq etmək məqsədəmüvafiqdir);
- Dərsə (təlim prosesinə) olan marağı artırmaq üçün motivasiyanı inkişaf etdirən mükafatlar verilə bilər. Məsələn, dərslərini vaxtında yerinə yetirən uşaq mükafatlandırıla bilər (sevdiyi oyunu oynamaq, cizgi filmi izləmək və s.);
- Uşaqları məcbur etməklə müsbət nəticə əldə etmək olmaz.

Diqqətin inkişaf etdirilməsi üçün təlim prosesinin oyun prosesi ilə paralel şəkildə təşkili olduqca effektivdir. Uşağa qarşı son dərəcə sevgi və qayğı ilə yanaşmaq lazımdır. Belə ki, kiçik yaşlı məktəblilərdə diqqətin davamlılığı və keçirilməsi olduqca böyük əhəmiyyət daşıyır. Kiçik yaşlı uşaqlarda mexaniki hafizə güclü olur. Lakin yaddasaxlama haqqında bunu demək olmaz, çünki onlarda bu proses məntiqi üsulla həyata keçirilir. Bu ilk öncə təfəkkürün inkişafı ilə bağlıdır. Təfəkkür prosesi nəticəsində uşaqlar əşya və hadisələrin xarakterik xüsusiyyətlərinə bələd olurlar.

Uşağın inkişaf dövrlərinin kritik müddətinin təyin edilməsi, funksional və şəxsi dəyişikliklərin heteroxronikliyinin, eləcə də tarixi şəraitdə dəyişən yaş və fərdi xüsusiyyətlərin nəzərə alınması ən çətin məsələlərdən biridir. Uşağın yaş dövrləri öz inkişafına görə bir birindən müəyyən keyfiyyət və ya xüsusiyyətlərinə görə fərqlənir.

Kiçik məktəb yaşı uşaqların ibtidai təhsil illərini əhatə edən həyatlarının 6-10 yaş mərhələsinə təsadüf edir. Məktəbə qədəm qoymaqla və birinci sinifə daxil olmaqla şagird sistematik təlim prosesinə təhkim olunur. Təlim prosesinin təsiri ilə uşaq məktəbəqədər yaş dövründə əldə etdiyi biliklər sistemindən yararlanır və uşağın psixi imkanları qat-qat genişlənir. Onlarda bir sıra psixi proseslərin və xassələrin yenidən qurulması prosesi nəticəsində təlim aparıcı təlim fəaliyyətinə çevrilir. Təlim əməyi kiçik məktəblinin gün rejimində başlıca yer tutur. Daha ciddi fəaliyyət növü

kimi psixi inkişafın vasitəsinə çevrilir. Onun təsiri altında uşaqlarda psixi proseslərin ixtiyariliyi yüksəlir, refleksiya-özünənəzarət və daxili fəaliyyət planı formalaşır.

Sistematik təlim məktəbə yenicə qədəm qoyan kiçik yaşlı şagirdin əsas fəaliyyət sahəsinə çevrilir. Bu proses şagirdlərdən cisim və hadisələrin xüsusiyyətlərinə xüsusi diqqət yetirməyi və zəruri məqamları paylamağı, yadda saxlamağı və ifadə etməyi tələb edir. Belə ki, diqqətin bir sahədən digər sahəyə keçirilməsi və paylanması da tələb olunan şərtlərdən birinə çevrilir. Bu keyfiyyətlərdən birinin və ya hər hansı birinin olmaması keyfiyyətsiz təlim prosesinə səbəb olur. Qeyd edək ki, adı çəkilən keyfiyyətlərin təşəkkül tapması müəyyən qədər vaxt apara bilər. Yalnız səmərəli şəkildə təşkil edilən təlim prosesi bu keyfiyyətlərin sürətlənməsinə gətirib çıxara bilər.

Sinif kollektivində cərəyan edən müsbət əhval-ruhiyyə, pozitiv və sağlam psixoloji mühit, tərbiyəçinin fərdi yanaşması, təbəssümü, şən və sevinc dolu baxışları kiçik yaşlı məktəblidə təlimə olan marağı daha da artırır. Uşaqlara qarşı qayğı ilə yanaşmaq, onlara müəyyən tapşırıq verilərkən normalara əsaslanmaq müəllim heyətinin əsas öhdəliklərindən biri hesab olunur. Nəzərə alınmalıdır ki, dəyişkən əhval-ruhiyyə, qeyri-stabil diqqət, tez yorulmalar kiçik məktəb yaşlı məktəblilərin spesifik xüsusiyyətləridir. Səmimi münasibət bu yaşlı uşaqlarla uğur qazanmağın ən əsas vasitəsidir. Unutmaq olmaz ki, sadalanan keyfiyyətlər şagirddə bir sıra əxlaqi keyfiyyətlərin inkişafına, şəxsiyyət kimi formalaşmasına təsir göstərir. Gümrah əhval-ruhiyyə və səmimi münasibət uşaq təfəkkürünün konkretliliyinə və mənəvi aləminin zənginləşməsinə səbəb olur. Təlim-tərbiyə prosesində tərbiyəçi ilə müəllim arasında olduqca mürəkkəb və eyni zamanda səmimi münasibətlər sistemi formalaşır və müəllim şagirdin gözündə ən vacib və müqəddəs bir varlıq kimi assosiasiya olunur.

Kiçik yaşlı məktəblilər hekayə, şəkil və ya digər illustrasiyalara daha çox maraq göstərir və diqqətlərini bu obyektlər üzərində daha yaxşı cəmləyirlər. Məsələn, kəpənəklər, onların növləri, rəng qamması və digər xüsusiyyətlərini əyani vəsaitlərlə nümayiş etdikdikdə daha yaxşı nəticə əldə edə bilərik. Kəpənəklərin çiçəklərin üzərinə qonması, onların gözəlliyi və s. məlumatlar verildikdə uşaqların diqqəti ilə

daha rahat manipulyasiya etmək olar. Bu kimi məlumatlar verildikdə kəpənəyin necə uçması, çiçəyin üzərinə necə qonması və s. hadisələrin mənzərəsi uşaqların nəzərində sanki film fraqmenti kimi canlanır. Hekayələr, hadisələr və digər məlumatları kiçik məktəb yaşlı uşaqlara onların xarakterik xüsusiyyətlərinə uyğun şəkildə çatdırmaq lazımdır. Bu zaman hadisəyə düzgün yanaşma baş verəcək və qavrayış situativ olaraq təhlil etmə, əsas informasiyanın təcrid edilərək mənimsənilməsi və qəbul edilməsi ilə bağlı cavab reaksiyası verəcək.

Tam mənimsənilməyən hadisələrə ötəri yanaşmaq qəbul edilməzdir. Elementlərin kompleks şəkildə aşılanması arzuolunandır.

Kiçik məktəb yaşı dövründə təlim fəaliyyəti şagird davranışının əsasını təşkil edir. Ona görə də kiçik məktəb yaşı dövründə təlim elə təşkil edilməlidir ki, şagird özü özünə nəzarət edə bilsin, öz fəaliyyətini qiymətləndirməyi bacarsın. Qabaqcıl müəllimlərin təcrübəsi göstərir ki, təlim prosesində şagirdin öz yaşına müvafiq istiqamətlənmə tərzi və motivi nəzərə alındıqda mənimsəmə daha səmərəli olur. Beləliklə, uşaqların psixi inkişafında motivlər sisteminin, şüurun və fəaliyyətin bir vəhdət halında inkişafı əsas rol oynayır.

Uşağın psixi inkişafında onun yaşına müvafiq pedaqoji şəraitin olması da zəruridir. Təlim prosesində şagirdlər müxtəlif fənləri mənimsəyirlər. Onlar sinifdən-sinfə keçdikcə, təlim şəraiti dəyişir, yeniləşir. Yeni təlim şəraiti şagirdlərdə yeni mənimsəmə tərzlərinin formalaşmasına səbəb olur. Təlim üsulları yeniləşdikcə, rəngarəng xarakter aldıqca, şagirdlərin təlim materialını mənimsəmə bacarığı da yetkinləşir. Beləliklə, təlim prosesinin tədricən mürəkkəbləşməsi – bir-birindən daha mürəkkəb olan yeni təlim situasiyalarının yaranması şagirdin psixi inkişafına təkan verir.

Müasir məktəbin əsas vəzifələrindən biri mütaliəni motivasiyanın mənbəyinə çevirməkdən ibarət olmalıdır. Çünki motivin mənbəyi elə mütaliədir.

Uşaqlara daim inkişaf etməkdə olan şəxsiyyət kimi yanaşmaq lazımdır. Unutmaq olmaz ki, kiçik məktəb yaşı dövrü bütün bacarıqların, öyrənmə həvəsinin və şəxsiyyətin formalaşmasının təməl qaynağıdır.

Məlumdur ki, hər bir uşaq fərdi-psixoloji keyfiyyətlərə malikdir. Onların hər biri unikal xüsusiyyətlərə malik olurlar. Təlim prosesinin başlıca vəzifəsi dərs yükününün uşaqların fərdi xüsusiyyətləri ilə uzlaşdırılmasından ibarətdir. Nəzərə alınmalıdır ki, bəzən uşaqlar təlim prosesinə xüsusi maraq göstərir, bəzən isə laqeydliklə yanaşırlar. Kiçik yaşlı məktəblilərin hər biri eyni qaydada müstəqil düşüncə qabiliyyətinə və tənqidi münasibət bildirmə keyfiyyətinə malik olmurlar. Müəyyən fərqlərin biruzə verməsi isə normal hal hesab olunur. Bəs bunun səbəbi nədir? Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, təlimə olan maraq güclü genetikanın davamıdır. Belə ki, perinatal dövrün mərhələləri, ananın keçirdiyi hisslər, fəaliyyət göstərdiyi sahə və maraqları, meylləri uşaqların sonrakı inkişafına güclü təsir göstərir. Uşaqlar hələ dünyaya gəlməmişdən əvvəl "həyata hazırlıq mərhələsindən keçirlər". Qeyd edilən məsələ olduqca vacibdir. Nəzərə alsaq ki, postnatal dövrdə uşaqlar yaşlıları təqlid edərək böyüyür, böyüklərin hərəkətlərindən nümunə götürərək hərəkət edirlər və fərdlərin ehtiyacları və maraqları özünü onların övladlarında biruzə verir, məsələyə məqsədli şəkildə yanaşmaq lazımdır.

# II FƏSİL.KİÇİK MƏKTƏBLİLƏRDƏ TƏLİM MOTİVASİYASININ İNKİŞAFINA TƏSİR GÖSTƏRƏN AMİLLƏR

## 2.1. Kiçik məktəblilərdə təlim motivlərinin yaranmasında məktəbin rolu

Məktəb həyatına qədəm qoyan uşaqların həyatında yeni bir mərhələ başlayır. İbtidai təhsil sisteminə təhkim olunmamışdan əvvəl kiçik yaşlı uşaqların əksəriyyəti məktəbə hazırlıqlı olur və müəyyən təsəvvürlərə malik olmaqla yanaşı yüksək motivasiyaya da sahib olurlar. Məktəbin və ibtidai sinif müəlliminin başlıca vəzifəsi bu motivasiyanın davamını formalaşdırmaq, uşaqların öyrənmə səylərini inkişaf etdirmək və yenicə yaranan təlim motivlərinin sönməsinin qarşısını almaqdan ibarətdir. Bu gələcəkdə müvəffəqiyyət və akademik bacarıqların inkişafının başlıca mənbəyidir. Uğurlu təlim prosesinin davamlı tətbiqi motivasiyanı artırır və uşaqların bu sahədə mövqeyini daha da möhkəmləndirir. Sinif kollektivində nüfuza sahib olmaq, hörmət qazanmaq və yüksək qiymətlər almaq şagirdlərin psixoloji sabitliyinin təminatçısıdır. Əks halda şagirddə fərdi keyfiyyətlərin və qabiliyyətlərin inkişafı ləngiyir, müvəffəqiyyətsizlik artır və özündən daim şübhələnən bir insan formalaşmağa başlayır. Məktəb sanki təməli ailə tərəfindən qoyulan prosesin davamçısı rolunu oynayır. Mümkün olan fəaliyyət növləri və şərtlər vardır ki, onların sayəsində dərsə olan maraq daha artır. Onları aşağıdakı kimi qruplaşdırmaq olar:

- Mövzuya maraq yaratmağın yolları:
  - Müəllimin şəxsi nümunəsi (şagirdlər, xüsusən də kiçik yaşlı məktəblilər sevdiyi müəllimlərin fənn biliklərinə daha yaxşı yiyələnirlər);
  - Təhsil materiallarının məzmunu (tədris materiallarının uşağın maraq və meyllərinə uyğunlaşdırılması);
  - Düzgün tədris metodlarından istifadə (uşaqlar texniki və ya humanitar fənnlərə meyilli ola bilərlər. Müəllim bunu vaxtında aşkarlamalıdır.) və s.

İbtidai sinif müəllimliyi üzrə kadrların hazırlanması olduqca mühüm məsələdir. Bu sahə üzrə ixtisaslaşmaq gələcəkdə savadlı, elmi biliklərə dərindən yiyələnmiş bir

cəmiyyətin təminatçısı olmaq deməkdir. İbtidai sinif şagirdlərinin savadlı və eyni zamanda empatiya qurmağı bacaran müəllim heyətinə böyük ehtiyacı vardır.

## İnteraktiv metodların təlim prosesinə daxil edilməsi və bu üsulla kiçik yaşlı məktəblilərdə təhsil motivasiyalarının artırılması

Dünya təcrübəsində təlim prosesi müxtəlif interaktiv üsullarla tədris edilir. Tədqiqatlar nəticəsində məlum olmuşdur ki, böyük bir ekrandan səpələnən material dərhal informasiya bürosuna ötürülür və ekranda yerləşdirilən məlumatlar daha yaxşı qəbul edilir. Tədris prosesinə yeni informasiya texnologiyalarının tətbiqi tədris prosesinin gücləndirilməsinə, təhsilin inkişafı ilə bağlı ideyaların dərinləşməsinə, dərs materiallarının sürətli mənimsənilməsinə və şagirdlərin müstəqil fəaliyyətinin artmasına imkan yaradır. İnformasiya baxımından daim yenilənən cəmiyyətdə informasiya-kommunikasiya texnologiyalarının tədris prosesinə tətbiqi artıq bir zərurət halı almışdır. İnteraktiv metodların istifadə imkanları olduqca genişdir. Bu yolla uşaqlarda həyat və onu əhatə edən hadisələr, obyektlər haqqında daha parlaq təsəvvür yaratmaq mümkündür.Kompüterin interaktiv və illüstrativ imkanları öyrənmə prosesinin motivasiya sahəsinə əhəmiyyətli dərəcədə təsir göstərir.

Fəal təlim metodlarına üstünlük verilməklə şagirdlərdə xüsusi bacarıqlar formalaşdırmaq mümkündür. Bu üsulla şagirdlərdə vizual effektiv və vizual məzmunlu düşüncə tərzi formalaşdırmaq mümkündür. İnformasiya vəkommunikasiya texnologiyalarının təhsil prosesinə tətbiqi öyrənmə fəaliyyəti üçün olduqca effektivdir və motivasiyanın inkişafına kömək edir. Bundan başqa interaktiv üsullardan istifadə şagirdlərdə diqqətin inkişafına, diqqətin düzgün cəmlənməsi və paylanması proseslərinə də müsbət təsir göstərir. Şagirdlər həyəcan və emosiyalarını idarə etməyi hələ erkən yaşlarından öyrənirlər və bu proseslər balanslaşdırılmış şəkildə inkişaf edir. Beləliklə, interaktiv təlim metodlarından istifadə uşaqların təhsilə olan marağının artırılmasının ən yaxşı vasitəsi hesab edilə bilər.

Məktəb mühitində təhsil motivasiyalarının inkişafı öyrənmə motivlərinin ümumi quruluşunun tam anlaşılmasından asılıdır və aşağıdakı üsullarla təşkil edilə bilər:

- Koqnitiv motivasiya - ən mürəkkəb akademik mövzular da daxil olmaqla sadə materiallaradək uşaqlar fərdi qabiliyyətlərinin imkan verdiyi qədər mənimsəyə bilirlər. Uşaqlar öyrəndiklərini tətbiq etməyi bacarmalıdırlar;
- İdraki motivasiyalar – məktəbin vəzifəsi maraqlı və canlı mövzuların öyrədilməsindən ibarətdir. Kitabla şagird arasında qırılmaz bir zəncir yaradılmalıdır. Uşaqlardan öyrəndiklərini müsahibə yolu ilə soruşmaq olar.
- Uğur motivasiyaları – müvəffəqiyyət əldə edən uşaqların formalaşdırılması üçün yüksək motivasiya gərəkdir. Bunun üçün uşaqlara seçim etmək hüququ verilməlidir. Uşaqlar öz qərarlarında dominant hüquqa malik olmalıdırlar.
- Prestij motivasiyası – uşaq şəxsiyyətinə hörmətlə yanaşılmalıdır. Onlarda liderlik meylləri baş qaldırdıqda nəzarəti əldən verməmək şərtilə bu funksiyanı inkişaf etdirmək lazımdır. Qeyd edək ki, bu yaşlı uşaqlarda liderlik meyllərinin biruzə verməsi tipik haldır. Nüfuz motivasiyalarının kifayət qədər inkişafı uşağın gələcək həyatında və istənilən həyati mənşəli fəaliyyətində mühərrik rolunu oynayır.
- Qabaqlayıcı motivasiya – uğursuzluğun qarşısının alınması məqsədilə tətbiq edilə bilər. Bu motivasiya məktəblilərin tədris illərinin başlanğıcında olduqca əhəmiyyətə malikdir. Burada iki başlıca tendensiya nəzərə çarpır: müəllimin hazırlığı və valideynlərin iddialılığı. Uşaqlar müsbət hərəkətlərinə görə mükafatlandırılmalıdırlarsa, neqativ hərəkətlərinə görə cəzalandırılmalıdırlar. Lakin cəza tətbiqi uşağın şəxsiyyətini qəti sürətdə alçaltmamalıdır. Cəza tətbiq edərkən uşağın fərdi-psixoloji keyfiyyətləri nəzərə alınmalıdır. Uşaq nə dərəcədə həssasdır? Onun üçün hansı tələbatın ödənilməsi daha vacib əhəmiyyət kəsb edir? və s. suallara əsaslanaraq cəza tətbiqi effektiv təşkil edilə bilər.
- Kompensasiya motivasiyası – uşaqlar özünü təsdiqləməyə, özlərinə diqqət çəkməyə çalışırlar. Bəzən valideyn tərəfindən diqqət əksikliyi ilə qarşılaşan uşaqlar ciddi psixoloji gərginlik yaşayırlar. Valideynlərin diqqət yetirməli olduğu vacib məqam uşaqlara qarşı son dərəcə qayğı ilə yanaşmaqdan ibarətdir. Gündəlik məişət qayğılarının əziyyətini uşaqlar çəkməməlidir. Uşaqlara kifayət qədər zaman

ayrılmalıdır. Onlarla oyun oynamaq, birlikdə rəsm çəkmək, gəzintiyə getmək, idmanla məşğul olmaq və ya digər əyləncəli proqramlar təşkil etmək olar. Bu həm valideynlərlə uşaqlar arasında emosional əlaqənin artmasına, həm də sağlam psixoloji mühitin yaradılmasına, eyni zamanda yüksək təlim motivasiyasının inkişafına şərait yaradır.

Təlim prosesinin başlıca məqsədlərindən biri, bilik və bacarıqlar sisteminin şagirdin əsas idrak motivinə çevrilməsindən ibarətdir.Bilik əldə etmək şagirdin daxili tələbatına çevrildikdə həmin şagirddə idrak passiv səciyyə daşımır. İdrak insan şəxsiyyətinin bütün cəhətlərinə nüfuz edir. Bu da ondan irəli gəlir ki, idrak, hər şeydən əvvəl, fəaliyyətdir. Burada xarici informasiyalar sadəcə olaraq əks etdirilmir. İdrak passiv proses deyil, sosial cəhətdən şərtlənən və şəxsi səciyyə daşıyan fəal prosesdir. Deməli, idrak nəinki öz tərkibinə müxtəlif səviyyəli inikas proseslərini, həm də şəxsiyyətin bütün tələbatlar - motivasiya sistemini də daxil edir. İlk növbədə idrakla motivasiya arasındakı qarşılıqlı münasibətə diqqət yetirmək vacibdir. Bu halda müəllim motivin psixoloji mahiyyətini bilməlidir. Təhrikedici, fəallıq doğuran amillər həm də qısamüddətli və keçici ola bilər. Bu hallarda idrak fəaliyyətinin müxtəlif səviyyələrdə motivləşməsi nəzərdə tutulur (21, səh.141).

Kiçik məktəbyaşlı uşaqlarda təlimə olan marağın, motivasiyanın artırılması və uşaqlarda oxu, yazı və hesablama vərdişlərinin, məsələ həlli bacarıqlarının formalaşdırılması məqsədilə sərt qadağaların qoyulması effektiv deyildir. Təlim prosesi müstəlif dövrlərdə fərqli məna kəsb etdiyi kimi I sinifdə də özünəməxsus xüsusiyyətləri ilə nəzərə çarpır. Bu isə təlimə olan marağın yüksəldilməsinə səbəb olur. Dərs prosesində fərdi iş ilə qrup və kollektiv iş formalarının növbələşdirilməsi hər bir uşağa öz fəaliyyətinin nəticələrini vizual yolla görməyə və yoldaşları ilə müqayisəli şəkildə işləməyə şərait yaradır. Emosional baxımdan stimullaşdırılmış və oyun elementləri ilə zənginləşdirilmiş təlim yüksək motivasiyanın göstəricisidir. Belə bir şərait təlim materiallarının daha da dərindən mənimsənilməsinə gətirib çıxarır.

Uşaqların idrak proseslərinin inkişaf etdirilməsi məqsədilə problemli situasiyalararın yaradılması, şagirdlərin onları müstəqil həll etməyə sövq edilməsi

olduqca vacibdir. Bu zaman şagirdlər əldə etdkləri biliklər sistemindən istifadə edərək onları həll edirlər.

İnsanın idrak fəaliyyəti ilə emosiyaları arasındakı münasibət idrakla motivləşmə arasında rabitə yaratmaqdan ibarətdir və bu baxımdan olduqca əhəmiyyətli məna kəsb edir (5, səh 382).

Uşaqların idrak proseslərinin inkişafı kiçik məktəb yaşı dövründə daha da sürətlənir. Uşaq təhsil almaqla yanaşı həm də həyat təcrübəsi toplayır, həqiqətləri öyrənir, biliklərin assimilyasiyası prosesi sürətlənir, bacarıqların inkişafı təşəkkül tapır, xarakter formalaşır və koqnitiv proseslər inkişaf edir. Kiçik məktəb yaşı dövrü uşağın bilik fəaliyyətinin predmeti kimi aktual transformativ mövqe ilə xarakterizə olunur. Koqnitiv fəaliyyətin strukturu sistematik komponentlərin qarşılıqlı təsir vasitəsi kimi müəyyən edilir və bu struktura aşağıdakılar daxildir:

- Məqsəd – bilik əldə etmək;
- Motiv – vəziyyətdən asılı olaraq dəyişə bilər;
- Metodlar – bilik və bacarıqlar, hərəkətlər;
- Mühit – müəyyən məqsədə xidmət edən mütəşəkkil inkişafetdirici şərait;
- Nəticə - yüksək motivasiyalı təlim və biliklər sisteminin mənimsənilməsi.

Kiçik yaşlı uşaqlarda koqnitiv proseslərin inkişafı xüsusi yaradılmış mühit müvafiq prinsiplər və zəruri biliklərin əldə edilməsinə yönəldilən fəaliyyətdir. İdrak proseslərinin strukturu bu prinsiplərə uyğun olaraq təşkil edilməlidir. Koqnitiv maraq kiçik yaşlı uşaqların təlim fəaliyyətinin ayrılmaz hissəsidir. Bu maraq təlim materiallarına yönəldilib müsbət təəssüratlarla əlaqələndirilməlidir və uşaqların fəaliyyətini təmin etməlidir. Uşaqların koqnitiv inkişafı müstəqil və onların inkişafına əsaslanan təlim fəaliyyətinə əsaslanır.

Təlim prosesinin səmərəli keçməsi üçün müəllim şagirdlərin ilk növbədə diqqət və hafizəsini yoxlamalıdır. Məsələn, müəllim yeni materialı şagirdlərə izah edir, təlimin səmərəli üsullarından istifadə edir. Necə deyərlər, müəllim öz öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirir. Şagirdlər də yeni dərsin izahı zamanı zahiri cəhətdən çox diqqətli olurlar. Ancaq müəllim materialın möhkəmləndirilməsi üçün şagirdlərə müraciət etdikdə müəllimin sualları cavabsız qalır, şagirdlər bu sualları

sükutla qarşılayırlar. Görəsən buna səbəb nədir? Axı, uşaqlar müəllimə çox diqqətlə qulaq asırdılar. Bu halda şagirdlərdə diqqətin yayınması müşahidə olunur. Diqqətin yayınması onun hazırda qarşıda duran məqsədlə əlaqədar olan cisim və hadisə üzərində yönəlməsində ifadə olunur. Diqqətin yayınmasına ən çox kənar qıcıqlayıcıların qüvvəsi, oxşarlığı daxildir. Bu cür qıcıqlar fəaliyyətə çox böyük mənfi təsir göstərir.

Məktəb həyatı uşaqdan ixtiyarı diqqəti daim məşq etdirməyi, onu cəmləməyi tələb edir. Bunun üçün də təbii ki iradi səy sərf olunmalıdır. Uşaqlarda ixtiyarı diqqət inkişaf etsə də, onlar özlərini ev tapşırıqlarını icra etməyə məcbur edə bilmirlər. Diqqəti vahid bir obyekt üzərində uzun müddət cəmləmək onlar üçün asan olmur. Belə ki, onların diqqəti tez-tez yayınır (15,səh 88).

Məktəbdə şagirdlərin təlim motivlərinin inkişafına təsir göstərən amillər çoxdur: sinif otaqlarında tədris məşğələləri üçün yaradılmış şərait, otağın işıqlandırılması, istilik sisteminin mövcudluğu, dərs kitabları, məktəbin ümumi tərtibatı, binanın görkəmi, istirahətin və asudə vaxtın necə təşkil olunması və s. Bütün bu sadalananların arasında müəllimin rolu daha böyükdür. Müəllimin mövqeyinə, gənc nəslin yetişməsində əməyinə tarixən yüksək qiymət verilmişdir. N.Gəncəvinin qənaətincə müəllimin dərsi təkcə gənc nəslin ağlına işıq saçmır, həm də qəlbini nurla doldurur.

Müəllimin ustalığı şagirdlərə öyrənmək bacarığı aşılamaqda göstərir. Təcrübəli müəllim tədris materialını şagirdlərə dərsdə mənimsətməyə nail olur. Onun üçün ev tapşırığı bilikləri dərinləşdirmək, möhkəmlətmək, genişləndirmək vasitəsidir. Təcrübəli müəllimlərin müvəffəqiyyətinin sirri şagirdlərin fəaliyyətini idarə etmək bacarığındadır (15, səh 49).

K.D.Uşinskinin nöqteyi nəzərincə, əgər biz həkimlərə öz sağlamlığımızı etibar ediriksə, pedaqoqlara uşaqlarımızın əxlaqını, ruhunu, ağlını və bütün bunlarla yanaşı öz Vətənimizin gələcəyini etibar edirik.

Təlim prosesinin və icra fəaliyyətin düzgün motivləşməsi, təşkili şagirdin bütün potensial qüvvələrini səfərbər etməyə imkan verir və davamlı iradi cəhd göstərmək sayəsində fəaliyyəti daha müvəffəqiyyətlə yerinə yetirməyə kömək olur.

Motivləşmə, orqanizmi fəallaşdıran və həmin fəallığı istiqamətləndirən təhriklər nəzərdə tutulur. Təlim prosesində ikinci situasiya şagirdlərin həvəsindən, marağından asılı olaraq onlara müstəqil informasiya verilməsindən ibarətdir.

Aparılan tədqiqatlar göstərir ki, kiçik məktəb yaşlı şagirdlərin intellektual imkanları ənənəvi təlimin məzmun və üsulları şəraitində tam mənası ilə inkişaf edə bilmir. Daha doğrusu, ənənəvi tədris proqramlarında kiçik məktəb yaşlı şagirdlərin əqli fəaliyyətinin potensial imkanları nəzərə alınmırdı. Məsələn, son vaxtlara qədər belə hesab edilirdi ki, ibtidai siniflərdə oxuyan şagirdlərin təfəkkürü konkret xarakter daşıyır və onlar mücərrəd məhfumları mənimsəməyə qadir deyildirlər. Sonrakı illərdə sovet psixoloqlarının, xüsusilə V.V.Davıdovun apardığı tədqiqatlar göstərir ki, ibtidai sinif şagirdlərinin əqli inkişafları nəzərdə tutulduğundan daha yüksəkdir və onlar müvafiq təlim şəraitində müvəffəqiyyətlə mücərrəd məhfumlara yiyələnə bilərlər. Deməli, aşağı siniflərdə belə uşağın təlim fəaliyyətini mücərrəddən konkretə doğru istiqamətdə qurmaq olar. Təlimin məzmununun və tədris üsullarının yenidən qurulması sayəsində uşaqların intellektual fəaliyyətinin və bütövlükdə onların təfəkkürünün daha yüksək səviyyədə inkişafı üçün geniş imkanlar yaranır (4, səh.10).

Beləliklə, kiçik məktəb yaşı dövründə uşağın inkişafının daxili məntiqinin nəzərə alınması istiqamətində təlim prosesinin qurulması təfəkkürün və ümumiyyətlə, əqli fəaliyyətin məqsədəmüvafiq olaraq formalaşdırılması üçün real zəmin yaradır.

Mütəxəssislərin təbirincə, motivlərin təşəkkülünə xarici aləmdə baş verən hadisələr, ideyalar da təsir göstərir. Bir sözlə, insanın fikirləri, hissləri, təcrübə və ideyaları onun motivlərində əks olunur. Bu baxımdan təhsil vəzifəsi qeyd edilən maraqlara uyğunlaşdırılmalıdır. Təlimin vəzifəsi şagirdin təhsil və yaş imkanlarına uyğun olmalıdır və ən yaxın inkişaf zonasına uyğun olmalıdır.

Məktəb təliminə keçid

Kiçik məktəblilərlə işləmək digər dövrləri ilə müqayisədə nisbətən çətindir və daha məsuliyyətlidir. Kiçik yaşlı şagirdlərlə iş ilk qəbul dövründən etibarən başlanır və IV sinifə qədər həyata keçirilir. İkinci sinifdə təhsil alan şagirdlər nisbətən

təcrübəli olur və ünsiyyətə daha tez girirlər. Onlarda yoldaşları və müəllimləri ilə qarşılıqlı münasibətə adaptasiya olunma prosesi daha sürətli gedir.

Bu dövrdə şagirdlər axtarşa meylli olurlar. Onlar üçün sosial status olduqca əhəmiyyətlidir. Sinif yoldaşları arasında hörmət sahibi olmaq onların ən seçici arzularındandır. Bu baxımdan müəllimlər olduqca ehtiyatlı davranmalı və kiçik yaşlıların psixologiyasından xəbərdar olmalıdırlar.İbtidai sinif insan həyatının ən vacib keçid dövrlərindən biri hesab olunur.Əgər uşaq daxilən bu keçidə psixoloji cəhətdən hazırdırsa, uşağın şəxsiyyətinin formalaşması üçün geniş imkanlar açır. Kiçik məktəb yaşı dövründə bu yaşa uyğun olan çoxcəhətli psixoloji xüsiyyətlər formalaşır, sonrakı dövrə keçmək üçün müvafiq imkanlar yaranır. Qeyd etmək lazımdır ki, məktəbə hazırlıq səviyyəsindən və uşağa tətbiq edilən pedaqoji təsirsistemindən asılı olaraq şəxsiyyətin formalaşması müxtəlif istiqamətdə gedir. Bu asılılıq uşağın ümumi məntiqinə uyğun gələrsə, o zaman şəxsiyyətin formalaşması işində qarşıya çıxan çətinliklərin nizama salınması o qədər də böyük gərginlik və ya səy tələb etməyəcəkdir.

Amerika pedaqoqları C.Brofi və T.Qudda "Müəllim və şagird münasibətləri" əsərində müəllimin "subyektiv" ünsiyyətinin xüsusiyyətlərini təhlil edirlər. Müəyyən olunmuşdur ki, pedaqoqlar rəğbət göstərdikləri uşaqlara daha çox müraciət edirlər. Biganə qaldıqları şagirdlər müəllimin diqqətindən kənarda qalırlar. Müəllimlər "intellektuallara", daha intizamlı və icraçı şagirdlərə daha yaxşı münasibət bəsləyirlər. Passiv şagirdlər ikinci planda qalırlar. Müstəqil, fəal və özünə inanan şagirdlər müəllimin hüsn-rəğbətinə sahib olurlar (15, səh 50). Lakin bu yolverilməz haldır. Bu şagirdlərdə təlim motivlərinin sönməsinə səbəb olur. Bu cür müəllimlər təlimdən uzaqlaşdırılmalıdırlar.

Uşaqlarda təlimin motivi oxumaq arzusu ilə şərtlənir. Aparılan tədqiqatlar göstərir ki, uşaqlar daha çox ciddi məşğələləri sevirlər və məktəbəqədər dövrü xatırladan məşğələ növlərinə laqeyd yanaşırlar. Müşahidələr göstərir ki, I-II sinifdə oxuyan şagirdlər oxunu, yazını, hesabı idmana, əl işinə və nəğməyə nisbətən daha çox sevirlər. Onlar müəllim tərəfindən verilən hər bir tələbi sözsüz və böyük səylə yerinə yetirməyə çalışırlar. Müəllimin tələbkarlığı və evə tapşırıqlar verməsi

uşaqlarda təlimə qarşı müsbət emosional münasibət yaradır. Təlimə olan bu münasibətdə uşaqların idrak maraqları və təlim əməyinin sosioloji rolunun hiss edilməsi əhəmiyyətli dərəcədə inkişaf edir. Təlimin sosioloji məzmunu uşaqların alınan qiymətlərə bəslədikləri münasibətdə aydın təzahür edir. Müşahidələr göstərir ki, uşaqlar uzun müddət qiymətə öz səylərinin nəticəsi kimi baxırlar və onlar gördükləri işlərin keyfiyyətini nəzərə almırlar. I-II sinif şagirdlərinə elə gəlir ki, qiymət səyə görə verilməlidir. Odur ki, verilən tapşırığın yerinə yetirilməsinin keyfiyyətindən asılı olaraq aşağı və ya pis qiymət alanda uşaqlar öz narazılıqlarını bildirirlər.

Məktəb mühiti təlim motivlərinin inkişaf etdirilməsində əvəzsiz rol oynayır. Bu cəhətdən dərsin təşkili qaydalarını xüsusi vurğulamaq lazımdır. Belə ki, ibtidai siniflər üçün nəzərdə tutulmuş dərsliklər uşaqların psixoloji durumuna və idrak xüsusiyyətlərinə uyğun şəkildə təşkil edilməlidir.Sinif rəhbərinin kollektivi idarə etmə bacarığına, öz metodikasına bələd olması və ixtisasına dərindən yiyələnməsi və uşaqları sevməsi sinifdə pozitiv abhavanın yaranmasına səbəb olur.Məktəblilərin öyrənilməsi, uşaqlarda bilik və bacarıqların, maraq və meyllərin üzə çıxarılması, təlim-tərbiyə işinin planlaşdırılması müəllim və şagird arasında qırılmaz körpü yaradır və uşaqları daha həvəslə çalışmağa sövq edir.

Bu bir həqiqətdir ki, şagirdi maraqlandırmayan tədbiri keçirmək onun təlim-tərbiyəsinə səmərəli təsir göstərmir. Sinif rəhbəri hər bir məktəblini yaxşı öyrəndikdə, onların qüvvətli və zəif tərəflərinə bələd olduqda öz fəaliyyətini bu istiqamətdə qurur, nəticədə müəllim-şagird, şagird-şagird, uşaq-valideyn münasibətləri faydalı məcraya yönəlir, qarşılıqlı anlama,qarşılıqlı ünsiyyət asanlaşır. Məktəblilərin sinif rəhbərinə inamı, etibarı artır, onun hörmət və nüfuzunu gözləyirlər. Belə olan təqdirdə şagirdlər sinif rəhbərini özlərinə doğma, yaxın adam sayır, onunla məsləhətləşməkdən, onları narahat edən məsələlərdən söz açmaqdan çəkinmir, dərd-sərlərini onunla bölüşürlər.

Şagirdlərdə təlim motivlərinin yüksəldilməsi, cəmiyyətdə şagirdlər, valideynlər, ictimaiyyət arasında hörmət və nüfuz qazanması üçün müəllim bir sıra şəxsi və peşə keyfiyyətlərinə yiyələnməlidir.

Məlumdur ki, pedaqoji keyfiyyətlər üçün dinamizm xarakterikdir. Onların adı olduğu kimi qalsa da, özləri yeni məzmun kəsb edir (15. səh.46).

Müəllimin şəxsi və peşə keyfiyyətlərinə verilən tələblər həm də sinif müəlliminə aiddir.Fənn müəllimləri, məktəbin ictimai təşkilatları,pedaqoji kollektivin digər üzvləri, başqa sinif şagirdləri ilə rəhbərlik etdiyi sinfin şagirdləri arasında anlaşılmazlıq yarandıqda sinif rəhbəri köməyə gəlir, hər bir məktəbliyə yaxından bələd olduğuna görəsinif rəhbəri konkret şagirdlə münasibətləri səmərəli qurmaq üçün fənn müəllimlərinə məsləhətlər verir.

Pedaqoji texnikanın tərkib elementlərindən biri müəllimin özünün və şagirdlərinin diqqətini idarə etmək bacarığıdır. Müəllim böyük uşaq qrupu ilə işləyir və uşaqlar xeyli tədris əməliyyatını yerinə yetirirlər. Bütün bu məqamlar müəllimin diqqətindən kənarda qalmamalıdır (15, səh 50).

İldə bir neçə dəfə (əsasən tədris rübünün sonunda, ata anaları övladlarının təlim müvəffəqiyyəti və tərbiyəlilik səviyyəsi, intizamı ilə tanış etmək üçün) sinif valideyn yığıncaqları keçirir.Sinif rəhbəri təhkim olunduğu sinifdə təlim və tərbiyə işlərini yüksək səviyyədə qurmaq üçün ilk növbədə sinif şagird kollektivini yaratmalıdır.

Müəllim şagirdləri hərtərəfli öyrənmək üçün onlar üzərində gündəlik müşahidələr aparmalıdır. Müşahidələrin nəticələri isə xüsusi dəftərdə qeyd edilməlidir. Bunun üçün hər bir sinif rəhbəri öz sinfi üçün müşahidə dəftərçəsi tutmalıdır. Müəllimlər şagirdlərə, onların öz qabiliyyətlərini inkişaf etdirmələri üçün gündəlik istiqamət verməlidirlər. Lakin şagirdin təlim işini başlı-başına buraxması, qüvvəsinə inamsızlığı, yoldaşlarından geri qalması, müəllimin düzgün olmayan rəyi, ailədə çox əzizləmək kimi hallar şagirddə məsuliyyətsizlik yarada bilər (21, səh.27).

Yeni mövzuya keçid almamışdan əvvəl nəzərə alınmalı bir sıra vacib keyfiyyətlər vardır: sinifdə utancaq, zəif xarakterli, qavrama qabiliyyəti nisbətən zəif olan və ya əksinə dikbaş, dalaşqan, dərs prosesinin pozmağa meylli olan hiperaktiv uşaqlara necə yanaşmaq lazım olduğunu bilməlidir.Bir çox müəllimlər uşaqlara tapşırıq verərkən ciddi səhvlərə yol verirlər. Müəllim səlis, rəvan, məntiqi, aydın danışmalıdır.

Kiçik yaşlı uşaq həmişə ünsiyyətə, kiminləsə ülfət bağlamağa çalışır. Uşaqlarda ünsiyyət və münasibətdə olmaq kiçik yaşlıların müstəqil fəaliyyətinin mühüm tərəfidir. Həmin fəaliyyətdə kiçik yaşlı uşaq bir tərəfdən yoldaşı və dostu ilə ünsiyyətdə olursa, digər tərəfdən yoldaşının hərəkətləri, ona münasibəti haqqında düşünür. Belə bir ünsiyyətdə şəxsiyyətlərarası münasibətlər formalaşır. Yaşıdlarından bir neçəsi kiçik yaşlı uşağa daha yaxın olur. Belə halda kiçik yaşlı uşaq üçün dosta sədaqətli olmaq müsbət keyfiyyət kimi özünü göstərir (2, səh.18).

Təlim motivlərinin formalaşması və inkişafı prosesi kiçik məktəb yaşı dövründə başlayır. Bu prosesin əsasında yeni bilik əldə edilməsinə olan maraq durur. Ümumpsixoloji aspektdən yanaşsaq, idrak proseslərinin emosional ehtiyaclardan qaynaqlandığını görə bilərik. Məişətdə və peşəkar pedaqoji dialoqlarda "maraq" termini motivasiya anlayşını bir növ aydınlaşdırır və açıqlayır. Məsələn, hər hansı şagird haqqında belə mülahizə irəli sürülür: "Bu şagirdin təlim marağı yoxdur." Belə bir fərziyyə təlim nəzəriyyəsinin əsas obyektinin maraqlardan ibarət olduğundan asılıdır.

Təlim motivasiyasının formalaşdırılması digər proseslərdə olduğu kimi sistematikdir. Bu prosesin başlıca xüsusiyyətləri dinamiklik, istiqamətlilik və stabillikdir. Təhsili uğurlu başa vurmaq, sosial münasibətlərdə qabaqcıl sırada yer tutmaq insanın daxili və xarici motivlərinə əsaslanır. İnsanın yaşı artdıqca insanın dünyagörüşü və qarşılıqlı münasibətlər ierarxiyasında əsaslı dəyişikliklər baş verir və təlim motivləri təlabatlara uyğun formalaşır. Təlim motivlərinin formalaşması hər zaman müsbət və ya neqativ istiqamətdə baş vermir. Bu elə bir mürəkkəb strukturdur ki, yaş artdıqca təlabatlar daha da yetkinləşdir, motivasiya sahəsi genişlənir, artıq əvvəlki kimi qüvvəyə malik olan təhriklər baş qaldırmır və daha yetkin ehtiyaclar ortaya çıxır, bəzən isə ziddiyyətlər özünü biruzə verir. Bu baxımdan təlim motivasiyalarını analiz edərkən şəxsiyyətin motivasiya sferasında dominantlıq edən motivlərin strukturu dərindən araşdırılmalıdır.

Şagirdlərdə təhsilə, təlimə olan maraq prosesin onların şəxsiyyətinin formalaşması, gələcək planları və həyati fəaliyyəti üçün nə dərəcədə əhəmiyyətli olduğunu dərk etmələrindən asılı olaraq yaranır. Təlim materiallarının dərk edilməsi

və mənimsənilməsi yalnız təliməyönələnməqsədyönlü, düşünülmüş və eyni zamanda müstəqil yanaşmadan asılıdır. Bu baxımdan ailənin rolu əvəzedilməzdir. Unutmaq olmaz ki, şagirdin ilk müəllimi elə onun valideynləridir. Əgər layiqli övlad tərbiyə edib möhkəm şəxsiyyət formalaşdırmaq istənilirsə, valideyn ilk növbədə özünütərbiyə ilə məşğul olmalıdır. Təlim motivasiyasının inkişaf etdirilməsində məktəblə ailənin birgə fəaliyyəti mütləqdir. Bu baxımdan metodika güclü olmalıdır. Təhsil işçilərinin tətbiq etdiyi metodlar nə qədər peşəkarcasına seçilərsə, şagirdlərdə təlimə maraq yaratmaq da bir o qədər aktivləşər.

Şagirdlərin maraq və meyllərinə, təlabatlarına uyğun təşkil edilmiş fəaliyyət daha effektiv təsir göstərir. Ailədə təlim motivlərinin inkişaf etdirilməsi və onların möhkəmləndirilməsi təhsil prinsiplərinə əsasən təşkil edilməlidir.

Pedaqoji kvalimetriya

“Kvalimetriya” (latın sözüdür, kval - keyfiyyət, metros – ölçmək) termini pedaqoji və psixoloji tədqiqatların istiqamətini təyin edir. Onun əsas məzmunu pedaqoji-psixoloji parametrlərin və xarakteristikaların ölçülməsindən ibarətdir. Bu baxımdan kvalimetriya anlaşıyı özü əsas mənada çox az işlədilir. Problemlərin təhlili sübut edir ki, pedaqoji kvalimetriya sahəsinə aid olan məsələlər həmişə keyfiyyət səviyyəsində, qeyri-metrik səviyyədə, müasir kəmiyyət metodlarını istifadə etmədən həll olunmuşdur. Belə ki, müəllimlərin kvalimetriyası və attestasiyası nisbətinə xüsusi diqqət yetirilməlidir. Tədris-tərbiyə müəssisələrinin işlərinin attestasiyası yaradıcı professional fəaliyyəti təşkil etməkdən ibarətdir. Kvalifikasiya (ixtisas) attestasiyanı təmin etmək mexanizmi, onun üçün lazım olan instrument və tədqiqat vasitəsidir (15. səh.53).

Müəllimin sinifdə fəaliyyətini ölçmək üçün ən geniş yayılmış üsullardan biri N.Flandersin işləyib hazırladığı “Qarşılıqlı təsirin təhlili” sistemidir.N.Flandersin sistemi təkcə sinifdə baş verən prosesləri, hadisələri yox, həm də onların ardıcıllığını qeyd etməyə imkan verir. N.Flanders hesab edir ki, onun metodu müəllimin sinifdə gördüyü işi bir yerə toplayır və onun davranışını əsaslandırılmış şəkildə təsvir etməyə

imkan verir. Qeyd edilən sxemin bir fraqmenti cədvəldə qeyd olunub: (15. səh.56-57).

Cədvəl 1.

Qarşılıqlı təsir sistemi

| | | |
|---|---|---|
| Müəllimin nitqi | Bilavasitə təsir | 1. Şagirdlərin anlaması. Şagirdlər müəllimin nitqini (tonunu, intonasiyasını) sakit qavrayırlar.<br>2. Rəğbətləndirmə. Şagirdlərin hərəkətini, davranışını tərifləyir və ya rəğbətləndirir, zarafat edir.<br>3. Şagirdlərin ideyalarını qəbul edir və ya onlardan istifadə edir. Şagirdlərin ideyalarını izah edir və ya işləyib hazırlayır, əgər müəllim öz ideyalarından daha çox istifadə edirsə, 5-ci mövqedən istifadə edin. |

| | | |
|---|---|---|
| Şagirdlərin nitqi | Birbaşa (bilavasitə təsir) | 4. Suallar qoyur. Şagirdlərdən cavablar gözləyir.<br>5. Mühazirə oxuyur. Müsallar gətirir və ya özünün şəxsi fikirlərini ifadə edir, ritorik suallar qoyur.<br>6. Göstərişlər verir. Göstərişlər, komandalar və ya əmrlər verir.<br>7. Tənqid edir. Şagirdlərin davranışını dəyişmək üçün təkidlərini ifadə edir.<br>8. Müəllimin müraciətinə şagirdin cavabı.<br>9. Şagirdin öz şəxsi təşəbbüsü ilə danışmağa başlaması.<br>10. Susmaq və ya tutula-tutula danışmaq. Pauza, qısa susma dövrü, |

| | | |
|---|---|---|
| | | müşahidəçi ünsiyyəti başa düşə bilmir. |

Uşaqlarda təlim motivlərinin inkişaf etdirilməsi yolları

Şagirdlərin təlim motivlərinin inkişaf etdirilməsi və onların fəaliyyətinin stimullaşdırılması məqsədilə aşağıdakı təkliflər ayırd edilir:

1. Dərs başlarkən maraqlı, maraq oyadırıcı suallar verilməli;
2. İşlər mümkün olduğu qədər aktiv, araşdırıcı, həyəcanlı və faydalı hala gətirilməli;
3. Təhsil alan şagird kollektivinin çatacaqları hədəf və məqsədlərə dair düzgün istiqamət olub olmadığından əmin olunmalı;
4. Şagirdlər arasında zəka, sosio-iqtisadi-mədəni oyunların təşkili, uşaqların bəzi fənlərə qarşı fərqli bucaqlardan baxdıqlarını bilməli;
5. Şagirdlərin əsas ehtiyaclarınınödənilməsinə köməklik göstərilməli;
6. Sinf kollektivinin fiziki imkanları nəzərə alınmalı;

7.Şagirdlərə qarşı fərdi diqqət göstərilməli;

8. Şagirdlərdə özünə inam və özünə hörmət hissi formalaşdırılmalı, gələcəkdə əldə edəcəkləri nailiyyətlərə motivasiya yaradılmalı və hər bir şagirdin təqdir edilmə ehtiyacıödənilməli;

9.Şagirdlərə hər mövzuda müxtəli variantlar təqdim edilməli;

10. Müsbət mənlik anlayışı inkişaf etdirilməli;

11. Hər bir şagirdin müsbət fərdi-psixoloji keyfiyyətləri nəzərə alınmalı və əldə olunan nəticələr elan olunmalı;

12.Şagirdlərin öyrənmə prosesində öz-özlərini istiqamətləndirmələri üçün şərait yaradılmalı;

13. Şagirdlərin maksimum dərəcədə cəsarətli və müvəffəqiyyətli olması üçün onların inkişafına şərait yaradılmalı;

14.Şagirdlərə məsuliyyət verərək, özləri arasında yarışlar təşkil edərək onların müvəffəqiyyət meyarlarının inkişaf etdirilməsi üçün texnikalar işlənilməli;

15.Qeyd edək ki,uşaqlar hər bir materialı maraq dairələrinə uyğun öyrənirlər.

Bu baxımdan kiçik məktəbyaşlı uşaqların diqqətini cəlb etmək çətindir, çünki onlar motivasiya olunduqları mövzuda seçici qəbul və diqqət göstərirlər. Odur ki, şagirdlərdə diqqətin inkişafına nail olmaq məqsədilə müəllimlər ilk növbədə onları düzgün motivasiya etməlidirlər.

Motivlərin və ümumilikdə motivasiya sisteminin təşəkkülü emosiyalarla sıx əlaqədardır. Bu onunla şərtlənir ki, insan fəaliyyətinin böyük bir hissəsi və psixi durumu emosional faktlarla tənzim edilir. Qeyd edək ki, ibtidai siniflərdə şagirdlərin təlim əməyini maraqlı şəkildə qurmaq da tələb olunur. Şagirdlərin sonrakı illərdəki fəaliyyəti bu dövrdəki təlim-tərbiyə prosesinin düzgün təşkilindən həlledici dərəcədə asılı olduğundan onlarda təlimə ciddi münasibət və maraqlar tərbiyə etmək xüsusi əhəmiyyət kəsb edir. Belə münasibət, onlarla aparılan peşəyönümü işində də vacibdir. Şagirdlərin gələcək həyat yolunun düzgün müəyyənləşdirilməsində, peşənin maraq, tələbat və qabiliyyətlərə münasib seçilməsində ibtidai siniflərdə aparılan peşəyönümü işlərinin önəmli əhəmiyyəti vardır. İbtidai siniflərdə şagirdlər təbiət, cəmiyyət, ətraf aləm haqqında müəyyən məlumatlar aldıqları kimi, peşələr haqqında da müəyyən təsəvvürlərə yiyələnməlidirlər. Lakin bu işdə pedaqoqlar arasında vahid rəy yoxdur (13, səh.102).

## 2.2. Kiçik məktəblilərdə təlim motivlərinin yaranmasında ailənin rolu

Müasir anlamda "stimullaşdırma" insanı nəyə isə yönəltmək, sövq etmək deməkdir. İnsan elə yaranmışdır ki, görəcəyi işləri daim onun yadına salmaq lazım gəlir. Zaman keçdikcə insana göstərilən təsirlərin müxtəlifliyini başa düşmək lazım olur. Primitiv üsullarla həyata keçirilən bu proses getdikcə çətinləşir. İstər məktəbdə, istərsə də ailədə təlim prosesinin məhsuldarlığının və effektivliyinin stimullaşdırılması ilə müqayisə olunacaq dərəcədə əhəmiyyətli ikinci bir məsələ yoxdur. Xüsusən də kiçik yaşlı məktəblilərlə işləyən zaman daha diqqətli davranmaq lazımdır. Çünki stimullaşdırma təlim prosesinin uğurlu alınmasına səbəb olan ən təsirli vasitələr içində səkkizinci yer tutur. Təlabatlar, motivlər, stimullar bir-birilə qəti şəkildə bağlıdır. Stimullar ilk öncə motivlərə söykənir və onunla vəhdət təşkil edir (15, səh.263).

Təlim elə bir prosesdir ki, onun düzgün təşkili və uşaq şəxsiyyətinin formalaşması ailənin göstərdiyi psixoloji təsirdən çox asılıdır. Təlim və tərbiyə prosesinə təsir göstərən ən mühüm xüsusiyyətlərdən biri də valideyn nümunəsidir. Unutmaq olmaz ki, uşaqlara davranışımızla aşıladığımız vərdişlər söz vasitəsilə deyilənlərdən qat-qat daha təsirlidir. Çünki uşaqlar yaşlıları təqlid edərək öyrənirlər. Uşaqların sosial təcrübəni mənimsədiyi ilk nümunə - onun valideynləridir. Gənc ata və ana isə özlərinin zahiri görkəmi, dünyagörüşü və insanlara münasibətləri ilə gənc nəslə mühüm təsir göstərirlər. Yəni uşağın yaşı nə qədər azdırsa, onda valideynin şəxsi nümunəsi daha böyük əhəmiyyət daşıyır.

Böyük rus pedaqoqu A.S.Makarenko deyirdi: "Uşaqları hər şey – insanlar, cisimlər, lakin hər şeydən əvvəl və hamıdan çox insanlar, xüsusilə də valideynlər, müəllimlər, tərbiyəçilər tərbiyə edir. Onlar şəxsi nümunələri və davranışları ilə daim uşaqlara təsir göstərirlər". Belə ki, lazımi həyati bilikləri, təcrübələri olmayan uşaqlar, xüsusilə məktəbəqədər və kiçik məktəb yaşlı uşaqlar özlərini əhatə edən adamların işlərinə və hərəkətlərinə baxır, onları təqlid edir və onlara oxşamağa çalışırlar. Buna görə də valideynlər və tərbiyəçilər öz hərəkətləri, əməlləri, adamlara yanaşma tərzləri ilə uşaqlara daim təsir etdiklərini unutmamalıdırlar (61).

Çox vaxt valideynlər tələb edirlər ki, uşaq özünü böyük kimi aparsın, eyni zamanda gözləyirik ki, o özünü uşaq kimi aparacaq. Məntiqi baxımdan bir yerə sığmayan bu yanaşma (bir tərəfdən böyük kimi davranma tələbi, digər tərəfdən uşaq kimi davranacağının gözlənilməsi) uşağın psixi inkişafına, şəxsiyyətinin formalaşmasına mənfi təsir etməklə bərabər həm də onu daimi daxili gərginlikdə saxlayır. Uşağın şıltaqlığı, tərsliyi böyüklərin belə ziddiyyətli tələblərindən yaransa daböyükləri təəccübləndirir, qəzəbləndirir. Onlar bunun səbəbini özlərində deyil, uşaqda axtarmağa başlayırlar (14, səh.46).

Çıxış yolu varmı? Var. İlk növbədə yuxarıda deyilən streotiplərdən qaçmaq lazımdır. Bu, aydındır ki, o qədər də asan başa gəlmir. "Tezcə böyüyərdi" – deyə gələcəyə tələsmək və "Hələ dünən o uşaq idi" – deyə keçmişə qayıtmaq ziddiyyət yaradır. Nəticədə həm uşaq, həm də valideyin əziyyət çəkir. Hər iki hal göz qarşısında olanı görməyə mane olur.

Valideyn uşağı necə varsa elə görməli, elə də qəbul etməlidir. Bəzən valideyn uşağı istədiyi, arzuladığı kimi görməyə çalışır, ona uyğun tələblər qoyur. Bu isə ifrat valideyn nəsihəti, danlağı, narazılığı ilə nəticələnir (14, səh.47).

Daha səmərəli model isə belə olmalıdır: "Uşağın üzərində hökm etmə, onun yanında yox, onunla birlikdə ol!". Məqsəd isə şəxsiyyət formalaşdırmaq olmalıdır. Bu isə uşağın psixoloji müdafiəsi, fərdi xüsusiyyətlərin nəzərə alınmasından keçir. Əməkdaşlığa əsaslanan ünsiyyət üsulu isə anlama, uşağın fikrinə hörmətlə yanaşmaqdan ibarət olur. Əməkdaşlıq uşağın tərəflərini inkişaf etdirir və zənginləşdirir. Bu prosesdə uşaq həm də özü özünün tərbiyəsilə məşğul olur (14, səh. 44).Bu model həm də uşaqların təlim bacarıqlarının yüksəlişinə səbəb olur. Valideynləri tərəfindən olduğu kimi qəbul edildiyini və dəyər verildiyini görən uşağın (məktəblinin) təlim motivləri də inkişaf edir.Böyüklərin uşaqla ünsiyyəti ikitərəfli və iki eyni hüquqlu insanın söhbətidir.

Ailə elə bir sosial institutdur ki, bu mühitdə cərəyan edən istənilən neqativ hadisə və ya ailənin psixoloji iqlimi şəxsiyyətin deformasiyasına səbəb ola bilər. Neqativ təsir altında böyüyən uşaq çox ciddi psixi gərginlik yaşayır ki, bu proses kiçikyaşlı məktəbli dövründə daha da güclənir və sonrakı yaş dövrlərində özünün pik

həddinə çatır. Məhz bu dövrdə valideynlərin əhəmiyyətsiz hesab etdikləri xoşagəlməyən münaqişə situasiyaları məktəblilərdə sərvət dəyərlərinin formalaşmasına və neqativ yönəlişliklərin yaranmasına gətirib çıxarır, uşaq şəxsiyyətinin formalaşmasında ailə inkişafetdirici vasitəyə deyil, neqativ amilə çevrilir. Məlumdur ki, nümunə – ən təsirli vasitədir. Uşaqların şüurunun formalaşmasında, bir şəxsiyyət kimi yetişməsində ətrafdakıların nümunəsi böyük əhəmiyyətə malikdir (61). Ailədə uşaqların gündəlik rejiminin düzgün təyin olunması olduqca önəmlidir. Bu işin öhdəsindən gəlmək və uşaqları öz iradəsinə tabe etmək valideyn üçün çətin olsa da, nail olunmalıdır. Bu işdə valideyn kontingenti istər məktəb, istərsə də ictimai birliklərdən dəstək almalıdır.

Valideynlərin üzərinə əsas məsuliyyət təhsil prosesinin ilk mərhələlərindən etibarən uşaqlara təlimin əhəmiyyəti barədə fikirlər aşılamaqdan ibarətdir. Uşaqların ilk təcrübə vərdişləri ailədə formalaşdığından qeyd edilən məsələ olduqca mühüm və ciddi əhəmiyyət kəsb edir. Kiçik məktəb yaşlı uşaqların ən əsas problemlərindən biri ev tapşırıqlarının icrası zamanı yaranan problemlərdir. Bu dövrdə uşaqlar adaptasiya olmaqda çətinlik çəkirlər. Dərs zamanı verilən ev tapşırıqlarının icrası ilə əlaqədar yaş dövrünə uyğun təlimatlar verilməlidir.Uşaqlara ev tapşırıqlarının icrasının ən vacib fəaliyyət olması barədə təlimat verilməlidir. Ev tapşırıqlarının icrası böyüklər tərəfindən də vacib hesab edilən bir məşquliyyət olaraq qəbul etdirilməlidir. Yalnız bu zaman uşaqlar ev tapşırıqlarına ciddi və məsuliyyətlə yanaşırlar. Axı onlar böyükləri təqlid edirlər. Hesab edilir ki, təlim motivasiyalarının inkişafı elə bu mərhələdən başlayır. Bu proses uşaqlar tərəfindən müsbət qarşılana bilər, çünki təhsilə təhkim olunmamışdan əvvəl onların üzərində bu qədər məsuliyyət yox idi. Məsələn, uşaqlar oyun oynayarkən, gəzintidə olarkən valideyn tərəfindən çağırıla bilərdi, lakin hal-hazırda uşaqların öhdəsində olduqca vacib bir fəaliyyət sahəsi var və bu onların üçün xüsusi statusa malikdir. Uşaqlarda belə bir təsəvvür formalaşır: əgər böyüklər işləyən zaman onları narahat etmək olmazsa, onları da ev tapşırıqlarını icra etdikləri zaman narahat etmək yolverilməzdir. Bəzən valideynlər uşaqlarla birlikdə ev tapşırıqları icra etməyə həddindən artıq təşəbbüs göstərirlər. Bu elə də yaxşı nəticə vermir. Ev tapşırıqlarının icrası zamanı valideynlər tərəfindən yol

verilənbəzi səhvlər qeydə alınır. Bəzən işdən yorğun vəziyyətdə qayıdan valideyn özünü uşaqla birlikdə ev tapşırığı icra etmək və ya uşağaköməklik göstərmək kimi qayğılardan azad etmək üçün dərs yükünü uşaqların yerinə özləri icra edirlər ki, bu da yolverilməzdir. Qiymətləndirmə zamanı valideynlə uşaqların icra etdiyi tapşırıqlar arasındakı fərq nəzərə alınmalıdır. Müəllim hazırlıqlı olmalıdır.

Psixoloji-pedaqoji münasibətlərin ailəyə göstərdiyi təsirlərdən də danışmaq düzgün olardı. Ailə münasibətlərində nəzərə çarpan səmimiyyət, qarşılıqlı sevgi və hörmət, bir-birini anlama və güzəştə getmə gün ərzində baş verən bütün neqativ halların və yorğunluqların aradan qalxmasına səbəb olur. Sanki bütün problemlər öz asan həll yolunu tapır. Bütnü bunlar əsasən qadın və kişinin bir–birinə olan münasibətində təzahür edir. Qeyd olunan bütün funksiyaların aparıcı qüvvəsi təbii ki, ər və arvad birliyidir. Bu birliyin mahiyyətinə nəzər salsaq, bir çox suallara cavab tapmış olarıq. Ana-ata və uşaqların ünsiyyəti, onların istirahəti üçün mənəvi-psixoloji şəraitin yaradılması, asudə vaxtın səmərəli təşkili və s. məsələlər ailənin bərpaedici funksiyasına daxildir və uşaq şəxsiyyətinin inkişafında əvəzsiz rol oynayır. Məhz belə bir şəraitdə uşaqların təlim prosesi lazımi səviyyədə həyata keçirilə bilər. Bu işdə məktəb aparıcı mövqedə olmalıdır.

Uşaqların təlim və tərbiyəsinə mənfi təsir göstərən səbəblərin bəzilərini aşağıdakı kimi sıralaya bilərik:

1. Bir çox ailələrin iqtisadi vəziyyətinin aşağı olması;
2. Sosial həyatda mədəni səviyyənin aşağı olması;
3. Ailədə qadının iki qat yüklənməsi: onun həm ailədə çox işləməsi, həm də sosial işdə çox çalışması;
4. Boşanma amili;
5. Ailədə valideynlər arasında daimi çəkişmələr;
6. Ailədə uşaqlara nəzarətsizlik və etinasızlıq;
7. Ailə üzvləri arasında birliyin olmaması;
8. Ailə üzvləri arasında müxtəlif maraq dünyaları;
9. Ailə və məktəb arasında birliyin olmaması;
10. Müəllim və tərbiyəçilərin ailəyə zəif təsiri (14, səh.40-41).

Məktəbin ailəyə, ailənin də məktəbə tərbiyəvi təsiri olduqca önəmlidir.Ailədə həm yaşlılar, həm də uşaqlar tərbiyələnirlər.Ailənin gənc nəslin tərbiyəsində rolu böyükdür. Bu səbəbdən ailənin maarifləndirici təsiri üç cəhətdən özünü göstərir:

a)tərbiyənin ailənin yaşlı üzvlərinə verilməsi;

b) ailəüzvlərinin öz-özlərinə tərbiyəvi təsiri;

c)uşaqların öz valideynləri ilə daimi əlaqəsi və valideyn-övlad münasibətlərinin düzgün qurulması.

Pedaqoji təcrübələr zamanı məlum oldu ki, valideynlər əsasən müəllimin maarifləndirici söhbətlərindən xeyli faydalanırlar. Valideynlərlə aparılan iş sistemli xarakter daşımalıdır. Belə ki:

1.Valideynlər məktəbin, sinifin işinə cəlb edilməli, onlarla pedaqoji iş aparılmalı;

2. Valideynlərin uşaqların təlim və tərbiyəsinə nəzarət işini təşkil etməli;

3. Övladlarının təlim və tərbiyəsi ilə məşğul olmayan valideynlərlə sistemli, planlı iş aparılmalıdır.

Valideynlər şagirdlərin peşə seçimini onların maraq və meylinə uyğun olaraq təşkil etməlidirlər.Müəllim valideyni, məktəbə, pedaqoji işlərə, təlim-tərbiyə prosesinə cəlb etməlidir. Bu işin həyata keçirilməsində müəyyən etdiyimiz bəzi pedaqoji prinsiplərə əməl edilməlidir:

1.Valideynə hörmət prinsipi;

2. Valideyndə elementar pedaqoji, psixoloji biliklərin aşılanması;

3. Valideynin yaş xüsusiyyətlərinin nəzərə alınması;

4. Valideynlik təcrübəsinin nəzərə alınması;

5. Valideynin sosial mövqeyinin nəzərə alınması;

6. Valideynin mədəni səviyyəsinin nəzərə alınması;

7. Valideynin ümumi dünyagörüşü və bilik səviyyəsinin nəzərə alınması;

8. Valideynlə iş birliyində nikbinlik və ümidli olmaq prinsipi (14, səh.42).

Aparılmış elmi tədqiqatlarla müəyyən edilmişdir ki, valideynlərin pedaqoji biliyinin artırılması və onlara differensial yanaşma daha səmərəli nəticə əldə edilməsinə şərait yaradır. Pedaqoji biliyin təbliğində differensial yanaşma dedikdə,

hər hansı bir meyar əsasında müəyyənləşdirilmiş valideyn qrupları ilə məqsədəuyğun və planlı şəkildə aparılan nəzəri-metodiki işlərin səmərəsi və keyfiyyəti nəzərdə tutulur (14, səh.384).

Ailədə tərbiyə prosesinin başlanğıcı və sonu yoxdur. Ailə insani münasibətlərin ilk tərbiyə məktəbidir. Ailədə ilk əxlaqi təcrübə, fəzilət təşəkkül tapır. Ailə özlüyündə kiçik bir dövləti xatırladır. Ailədə uşaqlar yalnız tərbiyə almırlar, həm də onlar böyüdükcə övladlıq borclarını dərk edir, qocalmış valideynlərinə qayğı göstərməyin zəruriliyini anlayırlar. Uşaqlar üçün onların valideynləri idealdır (11, səh. 440).

Ailələrdə uşaqların tərbiyəsinin düzgün təşkil edilməsi məqsədilə valideynlər məktəblə sıx əlaqə saxlamalı, ondan vaxtında lazımi məsləhətlər almalıdır. Məktəb ictimai-dövlət təşkilatıdır, ictimai və sosial tərbiyənin müvəkkilidir. Burada uşağın təlim-tərbiyəsi səriştəli adamlar-mütəxəssislər tərəfindən aparılır. Məktəb gənc nəslin təlim və tərbiyəsi sahəsində dövlətin onun üzərinə qoyduğu vəzifələri təkbaşına tam uğurla yerinə yetirə bilməz. Bu sahədə o, ailənin və ictimaiyyətin qüvvəsinə arxalanmalıdır (29).

Kiçikyaşlı məktəblilərin təlim fəaliyyətinə təsir göstərən neqativ amil kimi ailədaxili münaqişələr pedaqoji yönümdə də öyrənilmişdir (A.S.Makarenko, B.H.Əliyev, K.R.Əliyeva, M.Ə.Həmzəyev, A.Q.Asmolov, L.M.Fridman, N.Kazımov, H.Əlizadə, A.Abbasov, S.Quliyev, Q.Abbasova, N.Muxtarova, A.A.Boder, A.A.Derkaç, və b). Bu tədqiqatlarda ailə münaqişələri həm məktəblinin şəxsiyyətinə təsir göstərən mənfi amil kimi, həm də təlim prosesinin effektivliyini aşağı salan hadisə, faktor kimi diqqət mərkəzinə gətirilmişdir(62,səh.202).

Ümumiyyətlə, kiçikyaşlı məktəblilərin inkişafında ailədaxili münaqişələrin rolunun öyrənilməsi və ailənin təlim motivlərinin inkişafı istiqamətində aparılmış tədqiqatlarda kiçikyaşlı məktəblilərin inkişafına kompleks yanaşmadan deyil, onların psixoloji göstəricilərinin differensiallaşdırılmış qaydada öyrənilməsinə daha çox diqqət yetirilir (B.Skinner, J.Piaje,L.S.Vıqotski, D.B.Elkonin və b).

Qədim Roma filosofu Senekanın fikrincə, nəsihətlərlə tərbiyə çətin, nümunələrlə tərbiyə isə asandır. Tərbiyə prosesində nümunə təlim prosesindəki əyaniliyi əvəz edir. Heç bir söz yaxşı və pisin nə demək olduğu haqqında nümunə

qədər əyani, konkret təsəvvür yarada bilməz. Nümunənin tərbiyəvi gücünün pixoloji əsasını uşaqların böyüklərə oxşamaq, onlar kimi olmaq meyli və qabiliyyəti təşkil edir. Onlar dərk etməzdən əvvəl təqlid etməyiöyrənirlər (35).

Valideynlərin çoxu öz uşaqlarını qabiliyyətli və mədəni, tərbiyəli, təlimdə yaxşı nəticələr əldə edən görmək istəyirlər. Lakin bu uğura aparan yolun əsas səbəbkarı da özləri olduğundan bəzən xəbərsiz olurlar. Valideynlərin bu təbii istəyi əsasında məktəblə ailə arasında münasibətlər qurulur. Məktəblə ailənin səylərini əlaqələndirmək eyni tərbiyəedici və inkişafetdirici mühit yaratmaq deməkdir. Bu baxımdan maarifləndirici görüşlərin təşkili, valideynlərin məlumatlandırılması olduqca vacibdir (15. səh.408).

Kiçik məktəb yaşı dövrü olduqca fərqli xüsusiyyətlərlə səciyyələnir. Təhsil motivasiyanın əsası "motivasiya vakuumu"nun yaradılmasından asılıdır. Motivasiya vakuumunun ən ümdə cəhətləri ailədə formalaşır. Uşağın məktəbdəki performansı ailədən qaynaqlanır. Uşaq şəxsiyyətinin inkişafı ailə mühitində formalaşır. Ailə uşağın ilk tərbiyə institutu, sevgi mənbəyidir. Uşağın sevgi ilə böyüdülməsi vacibdir. İlk öncə valideyn ilə övlad arasında emosional ünsiyyət yaradılmalıdır.

Psixologiya tarixçisi L.Demoz hesab edir ki, uşağa münasibətdə insanlığın tarixi indiyədək altı mərhələ keçmişdir. Onlardan hər biri tərbiyə üsulu, valideyn-uşaq münasibətləri baxımından digərlərindən fərqlənir. L.Demoza görə bu dövrlər aşağıdakılardan ibarətdir.

1. Qədimdən başlayaraq eramızın IV əsrinədək olan müddət. Bu dövr uşaqların kütləvi şəkildə öldürülməsi ilə xarakterikdir.

2. IV-XIII əsrlər. Bu dövrdə uşaqların öldürülməsi aradan götürülsə də, onların döyülməsi, monastra, tərbiyə edilməsi məqsədilə başqa ailəyə verilməsi məqbul sayılırdı.

3. XIV-XVII əsrlər. Bu dövrdə "ambivalent" tərbiyə üsulu üstünlük təşkil edirdi (61). Uşaqlara böyüklərin həyatına daxil olmağa icazə verilirdi, onlar qayğı ilə əhatə edilirdilər. Uşağa ondan istənilən şeyin hazırlanması mümkün olan xammal kimi baxılırdı.

4. Bu dövr bütövlükdə XVIII əsri əhatə edir. Artıq uşaq qorxulu, yalnız fiziki qayğıya ehtiyacı olan varlıq hesab olunmur. Valideynlər uşaqlarına daha yaxın olurlar. Lakin uşağın yalnız davranışına deyil, iradəsinə, daxili aləminə, fikrinə nəzarət edilməsi vacib sayılır.

5. XIX və XX əsrin birinci yarısını əhatə edən beşinci dövr uşağın "sosiallaşması" dövrü adlanır. Bu dövrdə tərbiyənin məqsədi uşağı gələcək müstəqil həyata hazırlamaqdan ibarətdir. Uşaq burada tərbiyənin subyekti yox, obyektidir.

6. XX əsrin ikinci yarısından başlayaraq müasir dövrə qədər olan müddəti əhatə edir. Bu dövrdə hesab edirlər ki, uşaq nə istədiyini valideyndən yaxşı bilir. Valideynin borcu uşağın fərdi inkişafına kömək etməkdir. Valideyn uşaqla emosional ünsiyyətə girməli, onu başa düşməyə çalışmalıdır (14, səh 41-42).

Pedaqoji təcrübə sübut edir ki, kiçik yaşlı məktəblilərdə təhsil motivasiyasının inkişafına sağlam psixoloji ailə mühiti təsir göstərir. Problemli ailələrdə böyüyən uşaqlar nisbətən az uğurlu olurlar və təlimə uyğunlaşmaqda və sosial əlaqələrə girməkdə çətinlik çəkirlər. Yaş artdıqca və sinifdən sinifəkeçdikcə uşaqların həyata baxışında dəyişikliklər baş verir və onları əhatə edən hadisələrə qarşı daha anlaqlı olurlar. Problemli ailələrdə böyüyən uşaqlarda təlim motivləri söndükdə onlarda bir sıra davranış pozuntuları meydana gəlir. Məktəbə münasibət mənfi istiqamətdə dəyişir, dərslərə və yoldaşlarına qarşı laqeydlik müşahidə olunur. Bununla bərabər dərsdə intizamsızlıq yaranır. Belə bir vəziyyət təhsil səviyyəsinin inkişafı üçün olduqca əlverişsiz haldır. Getdikcə bu hal daha da kəskinləşir. Bu baxımdan ailələrə dəstək verilməsi olduqca vacibdir. Psixoloji maarifləndirmə bu kimi neqativ halların təşəkkül tapmasına mane olmaqla yanaşı sağlam psixoloji mühitin yaradılmasına və ailələrdə psixoloji stabilliyin yaranmasına müsbət təsir göstərə bilər. Aşağıda qeyd edilən metodlar kiçik məktəbyaşlı uşaqlarla yanaşı bütünlükdə məktəbyaşlı uşaqlarla psixoloji tərbiyənin düzgün təşkilinə xidmət edə bilər:

Psixoloji cəhətdən sağlam uşaq böyütmək və təlim bacarıqlarına mükəmməl yiyələnmənin 7 əsaslandırılmış vasitəsi vardır. Bu vasitələri aşağıdakı kimi qruplaşdırmaq mümkündür:

1. Müvafiq hədəflərin seçilməsi - uşaqların müvəffəqiyyət şansını artıracaq sözlər işlədin və onu uğura ustanovka edin. Qısa müddət ərzində yüksək nəticələr əldə edəcəyinizə inamla yanaşın. Valideynlərin uşaqlara göstərdiyi etimad, müsbət baxış və inam onları daha da ruhlandırır. Belə ki, yüksək nəticə əldə etməyin ilkin şərti uşaqlara göstərilən etimaddır. Uşaq şəxsiyyətinə dəyər verilməlidir və uşaq bunu əyani şəkildə görməlidir. Tapşırıqlar verilərkən həyati məqamlarla əsaslandırılmalıdır. Uşaqlardan hər zaman mükəmməl olmalarını gözləmək onlara mənəvi sıxıntı verə bilər. Uşaqlar güclü və zəif tərəflərə sahib şəxsiyyət kimi yetişdirilməlidir, onlar robot deyil. Ətrafdakı insanların uşaqlarınıza hörmətlə yanaşmasını təmin edin, bu uşaqları daha da ruhlandırır.

Müvafiq gözləntilərin tərtibi: Övladınızla ünsiyyət qurun, səmimi söhbətlər edin. İncə, lakin dürüst danışın, onun arzuları, harada olmaq istəyi, maraqları qabiliyyət imkanları ciddi şəkildə nəzərə alınmalıdır. Fikirlərini sizinlə bölüşməsi üçün şərait yaradın. Ortaq maraqları aşkarlayın, ümumi dil tapmağa çalışın. Övladınızın özünüqiymətləndirmə səviyyəsini yüksəldin. Onu təmsil edən uğur qüvvələrini aşkr edin və övladınızın yüksəlişini müşahidə edəcəksiniz. Onlar daima qiddət mərkəzində olmalıdırlar. Onlardan ən yüksək nəticə gözlədiyinizi söyləyin, açıq və səmimi davranın. Hər addımında ona dəstək olun.

Ehtiyac olduğu zaman yenidən qiymətləndirmə: Uşaqların zaman keçdikcə böyüməsi, maraq və meyllərin də hər yaş dövrünə uyğun dəyişməsi daim nəzərə alınmalıdır. Uşağın gözləntilərini, fikirlərini nəzərə alın və bunu vaxtaşırı həyata keçirin. Tez-tez səmimi söhbətlər edin, səhvləri olduqda normal qarşılayın və düzəlişlər edin.

2. Məqsədin müəyyənləşdirilməsində uşaqlara dəstək olun – məqsədin yaranması mərhələləri şəkildə baş verir. Bu ilk öncə hər hansı bir fikir şəklində təzahür edir, fikirlərdən ümidlərə çevrilir və nəticədə məqsəd yaranır. Məhz bu zaman sizin rolunuz ön plana keçir. Belə ki, məqsədə çatmaq üçün görüləcək işlər, həmin işlərin icra yolları və gələcək planların qurulması zamanı uşaqlara xüsusi qayğı lazım olacaqdır.

Məqsədə çatma yolları və onların qoyulması üçün bəzi vasitələr:

• Məqsədlərin qeyd edilməsi: Tədqiqat zamanı sübut edilmişdir ki, yazılı şəkildə təqdim edilən və daim göz önündə olan qeydlər daha tez nəzərə çarpır və həyata keçirilir. Belə ki, hədəflərin müəyyən olunaraq qeyd edilməsi də vacib məna kəsb edir. Bu yerinə yetiriləcək işlərə dair vizual xatırlatma rolunu oynayır. Buna görə də uşaqlarınızın öz hədəflərini ifadə etməsi və qeydlər aparması üçün şərait yaradın. Qeydləri evin ən görkəmli güşəsində yerləşdirin. Məsələn, bu mətbəx divarı da ola bilər.

• Məqsədin dəqiqləşdirilməsi. Müəyyən istiqamətləndirici suallar verilə bilər. Məsələn, "Həmid (ad şərtidir), bu çətin də olsa, riyaziyat fənnindən növbəti rüb daha yüksək nəticələr gözləyək?” və ya “Daha yaxşı nəticə nədən ibarətdir? Daha yüksək nəticə əldə etməyin hansı mərhələləri var?” və s.

Müəyyən müddət keçdikdən sonra riyaziyyat fənnindən Həmidin (ad şərtidir) göstəriciləri  C-dən B-yə yüksələcəkdir. Və bu daha yaxşı nəticə deməkdir.
Uşağın məqsədlərini bir növ xəritə şəklində formalaşdırmaq olar.

• Hədəflər ölçülə bilən olmalıdır. Hədəflərin ölçülməsi və nəticələrin qeyd edilməsi uşaqların tərəqqisinə müsbət şərait yaradacaqdır. Məsələn, Həmidin (ad şərtidir) get-gedə daha çox uğur əldə etməsi və irəliləməsi barədə qeydlər apara bilərsiniz.

Aşağıdakı müddəalara diqqət yetirək:

Uşaqların istənilən fəaliyyət sahəsində uğur əldə etməsi üçün 5 mərhələdən ibarət atılan psixoloji addım:

İstər valideynlərin, istərsə də uşaqların fərqinə vardığı bir məqam vardır. Hər hansı fəaliyyət növünün icra edilməsi istəyi ilə həqiqətən əldə etmək duyğusu arasında fərq hər kəsə məlumdur. Valideynlər və mütəxəssislər tərəfindən tətbiq ediləcək 5 unikal addım vardır ki, uşaqların uğur əldə etməsinə şərait yaradacaqdır.

| | |
|---|---|
| Atılacaq addımlar və müvəffəqiyyət göstəriciləri: | Şüurlu qərarların qəbul edilməsi.................. 25% |
| | Zamanın müəyyənləşdirilməsi ........................ 40% |
| | İcra prosesi üçün tələb olunan mərhələlərin planlaşdırılması |

| | |
|---|---|
| | ..............50% |
| | Rəqiblərin olduğunu nəzərə almaq................65% |
| | Gələcəkdə görüşmək istədiyi insanlarla xəyali randevunun təşkil edilməsi...... 95% |

3. Təlim prosesinin həyati əhəmiyyəti barədə məlumat verilməlidir – məqsədlərin müəyyənləşdirilməsi və uşaqlara zaman ayrılması olduqca vacibdir. Təlim prosesinin əhəmiyyəti barədə fikirlər təcrübi yolla aşılanmalıdır. Uşağın təlim keyfiyyəti daim yoxlanılmalıdır. Bu prosesə aşağıdakılar daxildir:

• Sinif rəhbəri ilə birgə iş fəaliyyətinin təşkil edilməsi. Sinif rəhbəri ilə uşağın hədəfləri, fərdi-psixoloji xüsusiyyətləri və onlara qarşı qoyduğunuz tələblər barədə danışın. Övladınızla daim məlumat mübadiləsi edin. Övladınızın müəllimləri ilə daim əlaqə yaradın.

• Məktəbdə təlim-tərbiyə sisteminin dəstəklənməsi. Müxtəlif tədbirlərin, konfransların təşklinə nəzarət və öyrədici oyunların keçirilməsini təşkil etmək müsbət nəticə verə bilər. Sinif otağının tərtibatı olduqca mühüm əhəmiyyət kəsb edir.

• Ev tapşırıqlarının icrasına nəzarətin təşkili. Təlim prosesinin keçirildiyi güşə sakit, rahat və işıqlı olmalıdır. Otağın lazımi avadanlıqlarla təchiz edilməsi mütləqdir. Ev tapşırıqlarının icrasında müəyyən çətinliklər yarandığı təqdirdə dərhal köməklik göstərilməli və ya mütəxəssisə müraciət edilməlidir.

• Uşaqlara həvalə edilən tapşırıqlara daim nəzarət edilməlidir. Ev tapşırıqlarının icrası övladınızın başlıca məsuliyyətidir, lakin siz hər bir şeydən xəbərdar olmalısınız. Ev tapşırıqları, testlər, layihələr və s. vaxtında icra edilməlidir.

• Məktəbə və təlim prosesinə pozitiv münasibət bəslənilməlidir. Hərəkətlərinizi və danışıq tərzinizi daim nəzarətdə saxlayın. Övladınıza tədris müəllimləri barədə müsbət fikirlər aşılayın.

4. Övladınızın öyrənmə qabiliyyini və tərzini dəstəkləyin. Uşaqların öyrənmə tərzi çox problemlərin həllidir. Onun anlama və dərketmə kimi qabiliyyətlərini artırın və daim dəstək olun. Onun öyrənmə üslubunu dəstəkləyin. Öyrənmə üslubları müxtəlif ola bilər:

• Eşidərək öyrənmə - öyrəniləcək materialın başqa biriləri tərəfindən oxunaraq şagird tərəfindən eşidilərək öyrənilməsi. Bu cür uşaqların şifahi istiqamətləri daha çox inkişaf etmiş olur və kommunikativliyi ilə seçilirlər.

• Görmə üsulu ilə öyrənmə - “göz yaddaşı” imkanları hesabına öyrənmə metodudur və uzunmüddət hafizədən silinmir.

• İşləyərək öyrənmə - kinestetik qabiliyyətin inkişafı ilə əlaqədardır.

5. Təşviq dilini təyin edin – adətən valideynlər uşaqlarını “Əla nəticə idi!” və ya “Sükanı belə saxla!” kimi ifadələrlə motivasiya edirlər. Lakin araşdırmalar sübut edir ki, uşaqların motivasiya edilməsində ortaq məxrəcin tapılması daha çox effekt verir. Dəyər və cəsarət arasındakı fərq ədən ibarətdir? Aşağıdakı cədvələ diqqət yetirək:

| Dəyər | Cəsarət |
|---|---|
| Nəticələrin müzakirə edilməsi | Göstərilən səy və tərəqqinin nəzərə alınması |
| Fikirlərin nəzərə alınması | Təsviri sözlərdən istifadə edilməsi |
| Gözləntilərin yerinə yetməsi | Əldə edilən uğurun mükafatlandırılması |

Unutmaq olmaz ki, təşviq motivasiyanı artırır!

6. Uşaq hadisələrdən kənarda qaldıqda öyrənmə prosesinin səmərəsi aşağı enir. Şagirdin parta arxasında “sadəcə oturması” kifayət etmir. Motivasiyası yüksək olan uşaqlar ətrafda baş verən bütün hadisələrdən xəbərdardırlar. Onlar inkişafı sürətləndirən və biliklər sistemini zənginləşdirən mənbələrə daha dərindən bələddirlər. Bütün bunlarla yanaşı müsbət əhval-ruhiyyə onları daim müşaiyət edir. Yaradıcılıq və axtarıcılığın aktivliyi təlim prosesində öyrənmə qabiliyyətinin artırılmasında olduqca vacib əhəmiyyət kəs edir.

• Övladınıza klassik ədəbiyyat təklif edin və birlikdə qarğıdalı yeməyi unutmayın!

• Övladınızın maraqlandığı yaradıclıq sahəsinə dərin bir baxış keçirin.

• Uşağın maraq dairəsini genişləndirin. Onun zövqlərinə hörmətlə yanaşın və sevdiyi sahə üzrə istiqamətləndirin. Məsələn, övldınız basketbolu sevirsə, onu bu idmna növünə istiqamətləndirə bilərsiniz.

• Övladınızın qəzet və jurnal oxumaq vərdişinə yiyələnməsi yaxşı haldır. Bu onun inkişafına müsbət təsir edə bilər. Müvafiq məqalələrin səsli oxunması onlara zövq verə bilər.

• Muzeylərə, sərgilərə təşkil edilən ziyarət hər zaman əyləncəli və faydalı xarakter daşıyacaqdır. Bu zaman övladınız elmi-tarixi biliklərə yiyələnəcək, eyni zamanda onun sosial tədqiqat imkanları da genişlənəcəkdir. Ədəbiyyatlardan alınan məlumatların əyani şəkildə ziyarət edilməsi xüsusi maraqlı olacaqdır.

7. Uşaqların sağlam ruhda və güclü şəxsiyyət olaraq yetişdirilməsi. Yutta Universitetində fəaliyyət göstərən neyro-psixoloq, p.e.d., professor Sem Qoldşteyn hesab edir ki, uşaqların güclü şəxsiyyət olaraq yetişdirilməsinin başlıca şərti onların cəsarətləndirilməsindədir. Daxilən möhkəm uşaqlar istənilən situasiyada dayanıqlı olurlar. Sem Qoldşteynin fikrincə, aşağıdakı keyfiyyətlərin inkişaf etdirilməsi vacibdir:

- Özünəinam hissinin inkişaf etdirilməsi;
- Problemli situasiyada operativ həll yollarının tapılması;
- Diqqətin cəmlənməsi;
- Səhvlərin düzgün yolla düzəldilməsi.

Bundan başqa, uşaqlarla empatiya qurulması, onlara seçim imkanının verilməsi, vəziyyətdən asılı olaraq yanaşma tərzinin olması, uşaqların istedadlarının aşkarlanması və dəstəklənməsi onların inkişafının və motivasiya edilməsinin müsbət göstəricisidir.

Nəticə

Uşaqların qabiliyyətləri ilə iş prosesi arasındakı ortaq məxrəcin tapılması olduqca vacibdir. Təlim prosesində uğur əldə etməyin açarı çox çalışmaq, uşaqların motivasiya edilməsi və təhsil imkanlarından maksimum faydalanmaqdan ibarətdir. Validеynlərin uşaqlara göstərdiyi dəstək onları daim yüksək nəticələrə təşviq edir və

ruhlandırır. Yetər ki, övladlarınızda olan potensial qığılcımını zamanında aşkar edə biləsiniz (25).

Aparılan tədqiqatlar nəticəsində həm də məlum olmuşdur ki, uşaqlarda təlim motivlərinin yaranmasına təsir göstərən ən mühüm amillərdən biri ailənin sosial-iqtisadi vəziyyətindən asılıdır. Təhsil səviyyəsi və peşə vəziyyəti yüksək olan ailələrdə böyüyüb tərbiyə alan uşaqlar daha hazırlıqlı olurlar. Ananın təhsil səviyyəsi isə daha əhəmiyyətli rol oynayır. Belə bir aforizm vardır: "Cəhalətin ən qorxulu kabusu qadındır, çünki qadın öyrənirsə, övladına da öyrədir!"

# III FƏSİL. KİÇİK MƏKTƏBLİLƏRDƏ TƏLİM MOTİVASİYASININ YARANMASINA TƏSİR GÖSTƏRƏN AMİLLƏRİN EKSPERİMENTAL-PSİXOLOJİ TƏDQİQİ

## 3.1. Tədqiqat metodikasının seçilməsi prinsipləri və təsnifatı

Tədqiqat çərçivəsində öyrənilən əsas obyekt tədqiqatın mövzusuna müvafiq olaraq kiçik məktəb yaşlı uşaqlar, onlarda təlim motivlərinin inkişafına ailədaxili və məktəbdaxili amillərin təsirinin psixoloji təhlilindən ibarətdir. Məhz elə bu səbəbdən tədqiqatın aparılması və uşaqlarda təlim motivlərinin ölçülməsi məqsədilə müxtəlif anket sorğulardan, bioqrafik, müsahibə və müşahidə metodlarından istifadə edilmişdir.

Tədqiqat zamanı emprik məlumatların toplanılmasında kiçik yaşlı məktəblilərin ailə mühiti, təlimə olan marağı, digər maraq və meylləri, məktəbə və pedaqoq heyətinə olan münasibətinin öyrənilməsi məqsədilə müsahibə və müşahidə metodları ilə yanaşı tədqiqatçının özünün də tərtib etdiyi suallardan istifadə edilmişdir. Bu anketdə sosial-iqtisadi vəziyyətin ölçülməsi məqsədilə 4 əsas dəyişən (atanın təhsil səviyyəsi və peşə vəziyyəti, ananın təhsil səviyyəsi və peşə vəziyyəti) haqqında suallar verilmişdir. Ailədaxili vəziyyətin öyrənilməsi məqsədilə 7 sualdan ibarət sorğu təqdim edilmişdir. Burada ailə mühitində sakitlik və mütaliəyə uyğun şəraitin olması, şagirdin təlimlə bağlı suallarına ailədə ciddi yanaşılması, onun dərs cədvəli və təhsil vəziyyəti ilə maraqlanmaq, şagirdin aldığı qiymətə həssas olub onu təhsilə həvəsləndirmək kimi dəyişənlər öyrənilir.

Tədris mühiti (məktəbdaxili mühit, motivasiya səviyyəsi) haqqında vəziyyətin öyrənilməsi üçün 7 sualdan ibarət anket sorğusundan istifadə edilmişdir. Bu anket vasitəsilə təhsil mühitinin şərait və standartlara uyğun olması səviyyəsi, həmçinin müəllimlərin tədris metodlarının optimallığı öyrənilmişdir.

Bioqrafik metoddan istifadə edərək şagird şəxsiyyətinin öyrənilməsi və pedoqoji-psixoloji xarakteristikasının təhlili aparılmışdır.

Müşahidə metodu vasitəsilə ixtiyari və mənalı hafizənin səviyyəsi və xarakteri (mexaniki və ya sözlü-məntiqi hafizə, ixtiyari yaddasaxlama üsulları, yaddasaxlamanın sürəti, yadasalmanın asanlığı, hafizənin fərdi xüsusiyyətləri), təfəkkürün inkişafı (əşya və hadisələrin mühüm və ikinci dərəcəli əlamətlərini fərqləndirmə bacarıqları, ümumi və mücərrəd anlayışları mənimsəmə səviyyəsi, müqayisə, ümumiləşdirmə, müstəqil nəticə çıxarmaq bacarıqları, həll yolunu tapma) sürəti nəzərə alınmışdır.

Uşaqların dərsə marağı və təlimə münasibəti (təlimə marağın olub-olmaması, daha çox maraq göstərilən fənlər, alınan qiymətlər, müəllim və valideynlərin tərifinə şagirdlərin münasibəti, təlim fəaliyyətinin əsas motivi və s.) kimi vacib meyarlar da öyrənilmişdir.

Tədqiqat zamanı məlum olmuşdur ki, şagirdlərin qarşılıqlı münasibətləri, müəllimlərin uşaqlara yanaşma tərzi, müəllimin pedaqoji hazırlığı və s. keyfiyyətlər təlim motivlərinn inkişafına və məktəbə olan marağın daha da artmasına səbəb olacaqdır. Respondentlər kiçik yaşlı məktəblilərdən ibarət olduğu üçün məsələyə xüsusilə həssas yanaşılmışdır. Belə ki, kiçik yaşlı məktəblilərlə iş prosesi daha səmimi və inamlı olmağı tələb edir. Kiçik yaşlı uşaqlar bağça mühitindən yenicə ayrılmışlar və müəllimlərin simasında valideynləri görürlər. Həmçinin sinif yoldaşları ilə olan qarşılıqlı münasibət olduqca önəmlidir. Şagirdlərin bir sıra xüsusiyyətləri və təhsil aldıqları siniflərə görə tezliklərin hesablanması həyata keçirilmişdir.

Fəal və interaktiv təlim metodlarına olan maraq, qeyd edilən metodların təlim prosesinə tətbiqi məsələləri nəzərdən keçirilmiş və təkliflər verilmişdir.

Tədqiqat zamanı əldə edilən nəticələr, onların hesablanması və verilənlərin təhlili, statistik təsviri göstəricilərin verilməsi və nəticələrin dəqiqləşdirilməsi məqsədi ilə faiz göstəricilərindən istifadə edilmişdir. Eyni zamanda dinamika və istiqaməti müəyyənləşdirmək məqsədi ilə dəyişənlərarası əlaqə də öyrənilmişdir. Bütün bunlar statistik təhlil proqramı olan SPSS vasitəsi ilə həyata keçirilmişdir.

## 3.2. Alınan nəticələrin işlənilməsi

Bu yarımfəsildə verilənlərin statistik-təsviri aparılmışdır:

Şagidlərin cinsi xüsusiyyətləri üzrə tezliyi

Cədvəl 1.1

| Cins | Say | Faiz |
|---|---|---|
| Oğlan | 76 | 50.9 |
| Qız | 74 | 49.1 |
| Cəmi | 150 | 100 |

Cədvəldə seçmə qrupun cinslər üzrə strukturu verilmişdir və göründüyü kimi seçmə qrupun 50.9%-i oğlan və 49.1%-i qızlardan ibarətdir.

Təhsil aldığı siniflər üzrə şagirdlərin tezliyi

Cədvəl 1.2

| Şagirdin təhsil aldığı sinifin göstəricisi | Say | Faiz |
|---|---|---|
| III sinif | 3 | 1.5 |
| IVsinif | 3 | 1.5 |
| Cəmi | 150 | 100 |

Cədvəldə seçmə qrupun təhsil aldığı sinif üzrə strukturu verilmişdir və göründüyü kimi seçmə qrupun 1.5%-i üçüncü sinif, 1.5%-i isə dördüncü sinif şagirdlərindən ibarətdir.

Atanın təhsil səviyyəsinə görə seçmə qrupun strukturu

Cədvəl 1.3

| Atanın təhsil səviyyəsi | Say | Faiz |
|---|---|---|

| | | |
|---|---|---|
| Elmlər doktoru | 12 | 1.44 |
| Elmlər namizədi | 23 | 5.29 |
| Magistr | 28 | 7.84 |
| Bakalavr | 56 | 31.36 |
| Texnikum | 19 | 3.61 |
| Orta | 12 | 1.44 |
| Cəmi | 150 | 100 |

Cədvəldə sorğuda iştirak edənlərin atalarının təhsil səviyyəsi verilmişdir. Cədvəldən göründüyü kimi şagirdlərdən 1.44%-nin atası orta, 3.61%-nin texnikum, 7.84%-nin tam və 31.36%-nin atası natamam ali təhsillidir. 5.29%-nin atası elmlər namizədi və 1.44%-nin atası isə ali təhsilin ən yüksək pilləsinə yiyələnərək elmlər doktoru elmi adı ilə qiymətləndirilir.

Ananın təhsil səviyyəsinə görə seçmə qrupun strukturu

Cədvəl 1.4

| Ananın təhsil səviyyəsi | Say | Faiz |
|---|---|---|
| Elmlər doktoru | 2 | 0.04 |
| Elmlər namizədi | 4 | 0.16 |
| Magistr | 17 | 2.89 |
| Bakalavr | 48 | 23.04 |
| Texnikum | 54 | 29.16 |
| Orta | 25 | 6.25 |
| Cəmi | 150 | 100 |

Cədvəldə sorğuda iştirak edən şagirlərin analarının təhsil səviyyəsi qeyd edilmişdir. Şagirdlərdən 6.25%-nin anası orta, 29.16%-nin texnikum, 2.89%-nin anası tam və 23.04%-nin anası natamam ali təhsillidir. 0.16%-nin isə anası elmlər namizədi və 0.04% şagirdin anasının elmlər doktoru elmi dərəcəsi vardır.

Atanın peşə vəziyyətinə görə respondentlərin statistik strukturu

Cədvəl 1.5

| Atanın peşə vəziyyəti | Say | Faiz |
|---|---|---|
| İşsiz | 15 | 2.25 |
| Adi dövlət qulluqçusu | 25 | 6.25 |
| Yüksək vəzifəli dövlət qulluqçusu | 8 | 0.64 |
| Elmi işçi | 30 | 9 |
| Sərbəst biznes | 19 | 3.61 |
| Sahibkar | 53 | 28.09 |
| Cəmi | 150 | 100 |

Cədvəldən göründüyü kimi şagirdlərin 2.25%-i atasının işsiz olduğunu, 6.25%-i atasının adi dövlət qulluqçusu, 0.64%-i yüksək vəzifəli dövlət qulluqçusu olduğunu, 9%-i elmi işçi olduğunu, 3.61%-i sərbəst bizneslə məşğul olduğunu, 28.09%-i isə sahibkar olduğunu qeyd edib.

Ananın peşə vəziyyətinə görə respondentlərin statistik strukturu

Cədvəl 1.6

| Ananın peşə vəziyyəti | Say | Faiz |
|---|---|---|
| Evdar | 70 | 49 |
| Adi dövlət qulluqçusu | 56 | 31.36 |
| Yüksək vəzifəli dövlət qulluqçusu | 5 | 0.25 |
| Elmi işçi | 10 | 1 |
| Sərbəst biznes | 4 | 0.16 |
| Sahibkar | 5 | 0.25 |
| Cəmi | 150 | 100 |

Cədvəldən göründüyü kimi şagirdlərin 31.36%-i anasının adi dövlət qulluqçusu olduğunu, 0.25%-i yüksək vəzifəli dövlət qulluqçusu olduğunu, 1%-i elmi işçi olduğunu, 0.16%-i sərbəst biznesə malik olduğunu, 0.25%- sahibkar, 49%-i isə evdar qadın olduğunu qeyd edib.

Ailədaxili amillərin motivasiyaya təsirinin göstəriciləri

Cədvəl 1.8

| | Say | Min. | Maks. | Orta | Standart deviasiya | Çəplik (skewness) | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Miqdar | Standart deviasiya |
| Ailə daxili amillər | 150 | 12.00 | 30.00 | 24.3452 | 31.17440 | -0.390 | 0.145 |

Ailədaxili amillərin motivasiyaya təsirini öyrənmək üçün 7 sualdan ibarət anketdən istifadə edilmişdir və nəticələr cədvəldə verilmişdir. Bu dəyişənlərin qiyməti minimum 12 və maksimum 30 olmuşdur. Orta qiymət isə 24 olmuşdur. Öyrənilən dəyişənlər (ev mühitinin dərs çalışmaq üçün sakit və uyğun olması, şagirdin dərslə əlaqədar suallarının evdəcavablandırılması, təhsil fəaliyyəti ilə maraqlanmaq, valideynin şagirdin aldığı qiymətlərə olan həssas və tələbkar münasibəti və uşağın stimullaşdırılması) üçün əldə edilmiş orta qiymətə nəzərən demək olar ki, ailədaxili amillər təlim motivlərinin inkişafına olduqca böyük təsir göstərir.

Məktəbdaxili amillərin motivasiyaya təsirini öyrənmək üçün 7 sualdan ibarət anketdən istifadə olunmuş və həmin suallar cavablandırılaraq aşağıdakı cədvəldə qeyd edilmişdir.

Məktəbdaxili daxili amillərin motivasiyaya təsirinin göstəriciləri

Cədvəl 1.9

| | Say | Min. | Maks. | Orta | Standart deviasiya | Çəplik (skewness) | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | Miqdar | Standart deviasiya |
| Məktəb daxilidaxili amillər | 150 | 16.00 | 35.00 | 27.8286 | 3.1668 | -0.157 | 0.146 |

Cədvəldə göründüyü kimi minimum qiymət 16 və maksimum qiymət 35 olmuşdur. Yəni təhsil mühitindəki şərait (dərs və tədris vəsaiti, müəllimlərin tədris üsulları, şagirdlərə fərdi yanaşma tərzi, psixoloji və pedoqoji hazırlığı və s.) mövcud standartlara əsasən orta səviyyədən xeyli yuxarıdır.

Sübut edilən hipotezlərin interpretasiyasını aşağıdakı şəkildə (Şəkil 1) təqdim etmək mümkündür:




Şəkil 1. Ailədaxili və məktəbdaxili amillərin şagirdlərdə təlim motivlərinin inkişafına göstərdiyi təsirin göstəriciləri.

Dissertasiyanın tədqiqat mərhələsinə qısa nəzər salaq. Qeyd edildiyi kimi, tədqiqatın respondentləri Nəsimi rayonu M.Rahim adına 7 saylı orta məktəbin 4a, 4b və 3c sinifində təhsil alan şagirdlər və Nəsimi rayonu İ.Əfəndiyev adına Elitar gimnaziyanın 4d, 4q və 3a sinifində təhsil alan kiçik yaşlı məktəblilər olmuşdur.

Tədqiqata ümumi 150 nəfərdən ibarət seçmə qrup cəlb edilmişdir. Respondentlərin 74-ü qız, 76-sı isə oğlanlardan ibarətdir. İlk öncə sosial-iqtisadi göstəricilər müəyyən edilmişdir. Bu göstəricilərə respondentlərin valideynlərinin təhsil səviyyəsi və peşə vəziyyətini müəyyən edən dəyişənlər aiddir. Daha sonra kiçik yaşlı məktəblilərdə təlim motivlərinə təsir göstərən ailədaxili və məktəbdaxili amillərin müəyyən edilməsi və interpretasiyası həyata keçirilmişdir. Bütün dəyişənlər əldə edildikdən sonra ümumi nəticə əldə edilmişdir. Tədqiqatın həyata keçirilməsi zamanı anket sorğulardan istifadə edilmişdir. Bundan başqa ayrı-ayrı siniflərdə respondentlərin müşahidəsi aparılmış, müşahidə, müsahibə və bioqrafik metodlardan istifadə edilmişdir. Müsahibə metodundan istifadə edərək şagirdin ailəsinin sosial portreti haqqında aydın təsəvvür yaranmışdır.

# NƏTİCƏ

Ümumilikdə tədqiqatın nəticələrini aşağıdakı kimi qeyd etmək olar:

- Şagirdlərin inkişaf motivasiyası baxımından vəziyyətinin öyrənilməsi göstərir ki, onlarda inkişaf motivasiyası orta səviyyədən daha yüksəkdir. Şagirdlərdə motivasiyasızlıq olduqca aşağı səviyyədədir. Respondentlərin hər birində motivasiya olduqca yüksək idi.

- Ailədaxili amillər (şagirdlər ev tapşırıqları ilə məşğul olduğu zaman sakitlik və ev mühitinin uyğun olması, şagirdin dərslə əlaqədar suallarına evdə cavab verilməsi, onun dərs cədvəli və vəziyyəti ilə maraqlanmaq, əldə etdiyi uğurlara, qiymətlərə valideynin həssas olması, uşağın təhsilə motivasiya edilməsi) inkişaf motivasiyasına olduqca müsbət təsir göstərir. Buradan belə bir nəticəyə gəlmək olur ki, ailədaxili şərait uyğun olduqda şagirdlərin inkişafı düzgün cərəyan edir və təlim motivlərinin inkişafına səbəb olur. Bundan başqa uşaqların əməyə cəlb olunması onlarda məsuliyyəti artırır və özünəinam yaradır. Tədqiqat zamanı işlənilən bir sıra vasitələr (uşaqların təlim prosesinə motivasiya edilməsi yolları) olduqca əlverişlidir və səmərəli şəkildə tətbiq edilə bilər.

- Məktəbdaxili amillərlə motivasiya arasında əlaqənin mövcudluğunun müəyyən edilməsi tədqiqatın digər nəticələrindən biridir. Respondentlərə təqdim edilən anket sorğunun nəticələrindən bəlli olmuşdur ki, kiçik yaşlı şagirdlərin məktəbə münasibəti, kollektivdəki statusu, müəllimlərin şagirdlərə yanaşma tərzi, sinif otağının şəraiti (işıqlandırılması, otaqdakı əşyalar, illustrasiyalar, şəkilli plakatlar və s.) təlimə olan marağa olduqca böyük təsir göstərir. Tədris metodlarının keyfiyyətli tətbiqi də məsələyə təsirsiz ötüşmür. Qeyd edək ki, məktəblə valideyn arasında sıx əlaqənin olması olduqca vacibdir. Tədqiqat zamanı məktəb heyətinə valideynlər üçün özündə innovativ informasiyalar ehtiva edən iclasların, yığıncaqların təşkil edilməsi tövsiyə edilmişdir. Valideyn iclaslarında iştirak mütləqdir.

- Tədqiqatın nəticələri göstərir ki, valideynlərin təhsil səviyyəsi və peşə vəziyyəti, ailənin mütəmadi gəlirinin olması da uşaqların həyat tərzinə birbaşa təsir

göstərir. Sosial vəziyyəti bir o qədər yaxşı olmayan ailələrdə ailə-məişət problemləri baş qaldırır ki, bu da uşaqlarn təlim-tərbiyə prosesinin düzgün təşkilinə mane olur.

- Tədqiqat zamanı bioqrafik metoddan istifadə edərək şagird və onun ailəsi haqqında ətraflı məlumat toplanmışdır. Müsahibə metodu tətbiq edilərək ailə portreti təsvir edilmişdir. Dərs prosesinə mane olmadan təşkil edilən qısamüddətli müşahidə zamanı şagirdlərin təlim prosesində fəallığı, təlimə və mövzuya marağının olub olmaması, müəllimlərin tədris keyfiyyəti və s. əlamətlər nəzərə alınmışdır.

- Tədqiqat zamanı bəzi ailələrdə oğlan və qız övladları arasında fərq qoyulması ünsürünə rast gəlinmişdir. Dövlət tərəfindən cinsindən asılı olmayaraq hər bir vətəndaşın hüquqlarının qorunmasına həssaslıqla yanaşılsa da, bəzi ailələrdə bu amil qeydə alınmır. Bu olduqca ciddi bir xəbərdarlıqdır.

İnsanların sosial və psixoloji sağlamlığının qeydinə qalmaq olduqca vacibdir və bu peşənin sahibi olaraq qeyd edə bilərik ki, cəmiyyətdə uğurlu insanlara olduqca böyük ehtiyac vardır. Unutmaq olmaz ki, savadlı və təlimli bu günümüz işıqlı, aydın və müstəqil sabahımızın təminatçısıdır!

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT SİYAHISI

1. Azərbaycan Respublikası Təhsil Nazirliyi. Bakı Dövlət Universiteti. Kiçik məktəblilərdə diqqətin davamlılığının və keçirilməsinin tədqiqi
2. Ağayev M.H. “Pedaqoji fikir tarixində tərbiyə və təhsil”. Bakı 2011
3. Abdullayeva M.R. “Riyaziyyat təlimində ibtidai sinif şagirdlərinin ümumi inkişafının yüksəldilməsi yolları”
4. Abbasov A. “Pedaqogika”, Ali məktəblər üçün dərslik. Bakı, 2000
5. Bayramov Ə.S, Əlizadə Ə.Ə. “Psixologiya”. Bakı 2006
6. Bayramov Ə.S. “Etnik psixologiya məsələləri”. Bakı: Elm və həyat, 1996
7. Feyziyev C.Ə, İbrahimov, F.N, Bədiyev S.R. “Didaktika”. Bakı, Mütərcim, 2011
8. Hüseynzadə R, Qəhrəmanova K. “Tərbiyə prosesinin hüquqi-normativ əsasları”. Magistr hazırlığı təhsil pilləsi üçün nəzərdə tutulmuş proqram. Bakı, 2015
9. Hüseyn S. “Ailədaxili münasibətlərin kiçik məktəbli yaş dövrünəpsixoloji təsiri”
10. İbrahimov F.N, Hüseynzadə R.L. “Pedaqogika”. Dərslik, I cild, Bakı, 2012
11. İbrahimov F.N, Hüseynzadə R.L. “Pedaqogika”. Dərslik II cild, Bakı, 2012
12. Quliyev Ə.A. “Riyaziyyatin tədrisində ümumiləşdirmə.” Bakı, 2009.
13. Qədirov Ə. “Uşaqlarda idrak proseslərinin inkişafı”. Bakı, Maarrif, 1969
14. Məmmədov U.A. “Təlimin psixoloji əsasları”. Bakı, 1993
15. Paşayev Ə.X, Rüstəmov F.A., “Pedaqogika”, Bakı, Nurlan, 2007
16. Seyidov S.İ, Həmzəyev M.Ə. “Psixologiya”. Bakı, YYSQ, 2007
17. Seyidov S.İ, Həmzəyev M.Ə. “Ümumi psixologiya”. Bakı, YYSQ, 2014
18. Sadıqov F. “Pedaqogika”. Dərs vəsaiti. Bakı, 2009.
19. Yusifov F. “Ədəbiyyatın tədrisi metodikası”. Bakı, 2017
20. Zeynaloğlu C. “Ağrılı düşüncələrim”. Bakı, Print-S nəşriyyatı, 2015.
21. Zeynaloğlu C. “Təlim fəaliyyətinin psixoloji prosesi” (Metodik tövsiyələr) “Print-S” nəşriyyatı. Bakı, 2017
22. Аверин В.А. “Психология детей и подростков”. М.Владос, 2008
23. A.Güneş. “Çocuk Terbiyesinde Doğru Bilinen Yanlışlar”, Nesil nəş. İstanbul - 2008

24. ARCS modeli. arcs-model.blogspot.com/2012/03/arcs-modeli.html

25. “Seven Proven Ways to Motivate Children To Do Better in School.” The Parent Institute, P.O. Box 7474, Fairfax Station, VA 22039-7474, 1-800-756-5525.

26. aztehsil.com/news/4566-uaq-xsiyytinin-formalamasnda-valideynlrin-rolu.html

27. Bəhruz Məlikov. Diqqət və hafizənin psixologiyası

28. BSU/jmirkisiyeva Ndrmin

29. BEU. BEU/Buraxılış işi (2).doc

30. Babayeva N.M. “Biologiyanın tədrisində motivasiyanın yaradılmasının metod və formaları

31. Ch.Mammadov. Təlim motivləri.

32. file:///C:/Users/user/Downloads/d_pdf_refe_psixo_409.Təlim motivləri.

33. file:///C:/Users/user/Downloads/d_pdf_refe_pedaq_1294%20(3).pdfhttp://aile.lent.az/read/319/.

34. Fəal və interaktiv təlim. Yeni təlim texnologiyaları.

35. Gənc ana və uşaqların maarifləndirilməsi. “Respublika uşaq kitabxanaları üçün tövsiyə biblioqrafiyası”. Bakı, 2015.

36. http://edu.gov.az/upload/file/layihesenedi/umumi_tehsilin_dovlet_standartlari

37. https://m.facebook.com/VirtualPsixoloqlar/posts/325224080890435?locale2=az.

38. http://www.azkurs.org/derslik-azerbaycan-respublikas-tehsil-nazirliyinin-14-12-2011.html?page=30

39. https://www.psixologiyadanoxu.com/diqqətin-inkisafi-və-dərsdə-sagirdin-diqqətinin-səmərəli-təskili-haqqinda

40. https://www.facebook.com/permalink.php?story_fbid=1150543951687391&id=705388396202951&substory_index=0

41. http://kayzen.az/blog/pedaqoq/1167/təlim-prosesinin-mahiyyəti.html.

42. http://narinc.az/article/diqqet-daginiqligi-haqqinda-her-sey.

43. https://tehranabdurrahimov.wordpress.com/2016/03/30/maslounun-maslow-ehtiyaclar-iyerarxiyasipiramidasi-nedir-numunelerle/.

44. http://kayzen.az/blog/pedaqoq/8182/kiçik-məktəblilər.html.

45. http://banco.az/az/news/maslounun-maslow-ehtiyaclariyerarxiyasipiramidasi-

nedir-numunelerle.

46. http:psixologiya.net/referat_diplom/218-kurs-i351i.html
47. http://www.muallim.edu.az/www.old/arxiv/2013/47/19.htm.
48. http://www.cazibe.info/aile-psixologiyasi/ailenin-psixoloji-iqlimi-525/.
49. http://inform.az/index.php?newsid=12537.
50. http://kayzen.az/blog/psixologiya/1773/f%C9%99aliyy%C9%99tv%C9%99-irad%C9%99.html.
51. http://azens.az/menu-hersheyden/item/947-motivasiya-naedir
52. http://qadin.net/index.php?newsid=52132
53. https://www.facebook.com/permalink.php?story_fbid=1150543951687391&id=705388396202951&substory_index=0. A-Plus Uşaq İnkişaf Mərkəzi
54. http://kayzen.az/blog/psixologiya/1751/motivasiya-v%C9%99 emosiya.htm Motivasiya və emosiya.
55. http://psixologiya.net/referat_diplom/222-kurs-304350304.html
56. http://aztehsil.com/news/5285-agirdlr-frdi-yanama-prinsipi.htm
57. https://metodiktovsiyye.blogspot.com/2015/11/kicik-mktb-yasnn-baslangc-v-sonu-il.html - Metodik tövsiyələr
58. https//referat.ilkaddımlar.com/d.pdf.fnw_pedaq_784.pdf
59. http://www.e-qanun.az/alpidata/framework/data/4/f_4751.htm
60. Qazax rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin Metodiki və biblioqrafiya şöbəsi. "Sağlam ailə, sağlam cəmiyyət, güclü dövlət, gənc ana və uşaqların maarifləndirilməsi". (Metodiki vəsait). Qazax, 2016
61. Qasımlı B.F. "Milli mənəvi və bəşəri dəyərlərin vəhdəti müasir ailə quruluşunun şərtidir"
62. Məlikov B. "Diqqət və hafizənin formalaşması".
63. rezonanss.com/arxivl%C9%99r/6448
64. Şəxsiyyətin inkişafı və formalaşması məsələləri.
65. Təlim prosesinin mahiyyəti, məqsədi və vəzifələri.
66. Təlim motivləri. pdf_refe_psixo_409.
67. Talıbova R.N. "Motivasiya tədris üsulu kimi"

68. Uşaq psixologiyası. Pedaqoji universitet və institutlarda tələbə hazırlığı üçün proqram

69. Ümumtəhsil məktəblərində psixoloji xidmətin aktual problemləri. Dərslik, Bakı 2016

70. Vahid mərkəzləşdirilmiş kitabxana portalı. Yasamal rayon mərkəzi kitabxanasının internet saytı

71. 676. Elektron_kitablar_428-676